23 sentyabr 2022 №70 (1943)

www.medeniyyet.az

# MƏDƏNİYYƏT

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri

Qəzet 1991-ci ilin yanvarından çıxır

## Bu bayraq burada əbədi dalğalanacaq

### Prezident İlham Əliyev: "Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik"

Bu, tarixi hadisədir. Laçın şəhərinin azad edilməsi həmişə tarixdə qalacaq. Bu gün Laçın şəhərində, şəhərin mərkəzində, mərkəzi küçədə Azərbaycan bayrağını qaldırmışam. Bu bayraq burada əbədi dalğalanacaqdır.

Prezident İlham Əliyev bu sözləri sentyabrın 21-də Laçın şəhərində Azərbaycanın Dövlət Bayrağını ucaltdıqdan sonra deyib.

Dövlət başçısı diqqətə çatdırıb ki, 2020-ci ilin 44 günlük Vətən müharibəsi zamanı Laçının cənub, Kəlbəcərin şimal hissəsini müzəffər Azərbaycan Ordusu işğalçılardan azad etmişdi. 10 noyabrda imzaladığı kapitulyasiya aktının nəticəsində Ermənistan Ağdam, Kəlbəcər və Laçın rayonlarının işğal edilmiş hissəsindən öz qoşunlarını çıxarmalı idi və buna əməl etdi: "Ancaq Laçın şəhəri nəzarətimizdən kənarda qalmışdı. Bunun da səbəbi o idi ki, Ermənistanı Xankəndi ilə birləşdirən avtomobil yolu şəhərin ortasından keçir və buna görə biz Laçın şəhərini nəzarətə götürə bilməmişdik. Ancaq 9 noyabr tarixində aparılan danışıqlar nəticəsində mənim təkidimlə alternativ yolun çəkilişi sənəddə təsbit edildi və 3 il ərzində yeni yolun çəkilişi ilə bağlı razılaşmalar aparılmalı idi".

Prezident qeyd edib ki, biz isə razılaşmaları daha tez bir zamanda başa çatdırdıq: "Rusiya tərəfi ilə yeni yolun marşrutu təsdiqlənmişdi və təxirəsalınmaz tədbirlər görülərək yeni yolun çəkilişinə başladıq. Bu müddət cəmi bir il 8 ay çəkdi. Yəni, bir il 8 aydan sonra artıq alternativ yol hazır idi. Biz rəsmi qaydada bildiriş göndərmişdik ki, avqustun 2-də yol hazırdır, avqustun 5-də Azərbaycan Laçın şəhərinə və o cümlədən köhnə yola daxil olur və Laçın şəhərinə qayıdır. Ondan sonra bizə Qarabağda yaşayan ermənilər müraciət etmişdilər, xahiş etmişdilər ki, onlara avqustun 25-nə qədər əlavə vaxt verilsin. Baxmayaraq ki, burada qanunsuz məskunlaşma olub, biz yenə də humanistlik göstərərək onlara bu imkanı verdik. Beləliklə, avqustun 26-da Azərbaycan Ordusu Laçın şəhərinə daxil oldu və biz Laçın şəhərini qaytardıq".

"Laçın şəhəri bütün Laçın rayonu kimi, işğal altında olmuş bütün başqa yaşayış məntəqələri kimi erməni vandalizminə məruz qalmışdır" deyən İlham Əliyev bildirib ki, bəzi yerlərdə, o cümlədən Laçın şəhərində ermənilər qanunsuz məskunlaşma aparmış, Ermənistandan və daha çox xaricdən – Suriya və Livandan erməni əsilli insanları gətirib burada qanunsuz yerləşdirmişdilər: "Dünya ictimaiyyəti, beynəlxalq təşkilatlar, o cümlədən bu məsələ ilə birbaşa məşğul olan Minsk qrupunun həmsədrləri buna, sadəcə olaraq, göz yumurdular. Halbuki dəfələrlə bu mənzərəni görürdülər, dəfələrlə. Bax, bu yolla Ermənistandan Qarabağa, Qarabağdan Ermənistana gedərək



görürdülər ki, burada qanunsuz məskunlaşma aparılır. Görürdülər ki, Azərbaycan toponimləri sıradan çıxarılır. Görürdülər ki, bizim tarixi, qədim Azərbaycan torpağı olan Laçın erməniləşdirilir, burada qanunsuz məskunlaşma aparılır. Ancaq buna göz yumurdular, sanki bununla razılaşırdılar. Biz Azərbaycan xalqı isə bununla heç vaxt razılaşa bilməzdik. Mən hər dəfə deyirdim ki, heç vaxt imkan verə bilmərik bizim torpağımızda ikinci erməni dövləti yaradılsın".

*davamı səh. 2-də*

## Yerlərdə mədəni fəaliyyət günün tələblərinə nə dərəcədə cavab verir?

### Nazir Anar Kərimov Göyçayda müəssisələrə baxış keçirib, mədəniyyət işçiləri ilə görüşüb

Mədəniyyət Nazirliyi sistemində fəaliyyətin və idarəçiliyin təkmilləşdirilməsi, yerlərdəki mədəniyyət müəssisələrində vəziyyətlə tanışlıq və işin effektivliyinin artırılması məqsədilə nazirlik tərəfindən bölgələrə müntəzəm səfərlər təşkil olunur.

Mədəniyyət naziri Anar Kərimov sentyabrın 22-də Göyçay rayonuna səfər edib.

Anar Kərimov əvvəlcə Göyçay şəhərində ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət edib, önünə gül dəstəsi qoyub.



Səfər çərçivəsində mədəniyyət naziri bir sıra tarixi abidələrə və mədəniyyət ocaqlarına baxış keçirib, müəssisələrin maddi-texniki imkanları, cari vəziyyəti və fəaliyyət istiqamətləri haqqında məlumat alıb.

Anar Kərimov Göyçayın Bığır kəndi ərazisində 1918-ci ildə Azərbaycanda qanlı qırğınlar törədən bolşevik-erməni daşnak qüvvələrinə qarşı mübarizədə şəhid olmuş Qafqaz İslam Ordusu əsgərlərinin xatirəsinə ucaldılmış abidəni ziyarət edib. Burada Göyçay-Qaraməryəm döyüşlərində şəhadətə qovuşan türkiyəli qardaşlarımızın – 13 zabit, 235 əsgər və çavuşun xatirəsi əbədiləşdirilib.

Sonra nazir Göyçay rayon Bığır kənd Folklor evinə və rayon MKS-nin kənd kitabxana filialına baxış keçirib.

Göyçay Tarix-Diyarşünaslıq Muzeyinin fəaliyyəti ilə tanışlıq zamanı bildirilib ki, 1984-cü ildə yaradılan muzeyin 2012-ci ildə yeni binası istifadəyə verilib, muzeyin ekspozisiyası iki mərtəbədə yerləşdirilib. Hazırda muzeydə 6758 eksponat qorunub saxlanılır, onlardan 1100-ü daimi sərgilənir.

Arif Məmmədov adına Göyçay şəhər Uşaq musiqi məktəbinə gələn nazirə məlumat verilib ki, bədii tədris ocağı 1957-ci ildə fəaliyyətə başlayıb. 2016-cı ildə yeni bina ilə təchiz olunan məktəbdə hazırda fortepiano, skripka, tar, kamança, qarmon, xanəndə və nağara sinifləri fəaliyyət göstərir. Burada 377 şagirdin təlim-tərbiyəsi ilə 94 müəllim məşğul olur.

Qeyd edək ki, musiqi məktəbində qarmon ixtisası üzrə müəllim işləmiş Alim İbrahimov 2020-ci ildə 44 günlük Vətən müharibəsində Tərtərin Suqovuşan qəsəbəsi istiqamətində ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalıb.

Səfər zamanı 1982-ci ildən Xalq şairi Rəsul Rzanın adını daşıyan Göyçay rayon Mədəniyyət Mərkəzinə də baxış keçirilib. Müəssisənin yerləşdiyi 1200 kvadratmetr sahəsi olan ikimərtəbəli bina 1962-ci ildə istifadəyə verilib. 2019-2021-ci illərdə Mədəniyyət Nazirliyi tərəfindən burada əsaslı təmir işləri aparılıb. Mərkəzin tabeliyində 9 kənd mədəniyyət evi və 17 kənd klubu fəaliyyət göstərir.

*davamı səh. 4-də*

## Anım Günü ilə əlaqədar mədəniyyət ocaqlarında tədbirlər təşkil olunacaq

Tarixi Zəfərlə başa çatan 44 günlük Vətən müharibəsinin ikinci ildönümü yaxınlaşır. Prezident İlham Əliyevin 2 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, bu müharibədə qəhrəmancasına döyüşmüş, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə ehtiram əlaməti olaraq sentyabrın 27-si Azərbaycanda Anım Günü elan edilib.

Anım Günü münasibətilə mədəniyyət müəssisələrində müxtəlif tədbirlər təşkil




olunacaq, işğal altındakı əzəli torpaqlarımızın azad olunması ilə nəticələnən haqq savaşının gerçək qəhrəmanları ehtiramla anılacaq.

Akademik Milli Dram Teatrında ötən mövsümdə hazırlanmış "Zəfər yolu" tamaşası sentyabrın 23, 24 və 25-də nümayiş olunacaq. Sentyabrın 27-də Azərbaycan Dövlət Akademik Musiqili Teatrında Vətən müharibəsinə həsr olunan "Bir nəfəs qədər" tamaşası təqdim ediləcək.

*davamı səh. 2-də*

## "TÜRKSOY Opera Günləri"ndə Fikrət Əmirovun musiqiləri səslənib

Xəbər verdiyimiz kimi, Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) ənənəvi layihələrindən olan və bu il 23-cü dəfə keçirilən "Opera Günləri"ndə dünya şöhrətli Azərbaycan bəstəkarı Fikrət Əmirovun yaradıcılığına xüsusi yer ayrılıb.

2022-cil il bəstəkarın 100 illiyi ilə bağlı TÜRKSOY tərəfindən "Fikrət Əmirovun anma ili" elan edilib və bu çərçivədə bir sıra tədbir və layihələr nəzərdə tutulub. 23-cü "TÜRKSOY Opera Günləri"nin proqramına da Fikrət Əmirovun musiqisindən nümunələr salınıb. Musiqi axşamları sentyabrın 15-də Bursada, 18-də İzmirdə baş tutub. 20-21 sentyabrda isə "TÜRKSOY Opera Günləri" Şimali Kiprdə davam edib.

Türkiyə Mədəniyyət və Turizm Nazirliyi, Türkiyə Dövlət Opera Teatrları Birliyi, Şimali Kipr Mədəniyyət, Turizm, Gənclər və Ətraf Mühit Nazirliyi, Bursa və İzmir şəhərlərinin bələdiyyələrinin təşkilati dəstəyi ilə keçirilən konsertlərdə Bursa Dövlət Simfonik Orkestri və İzmir Dövlət Opera Teatrının simfonik orkestrləri iştirak edib. Orkestrlərə Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının musiqi rəhbəri və baş dirijoru, Əməkdar artist Əyyub Quliyev rəhbərlik edib.




*davamı səh. 8-də*

## 8-ci Bakı Beynəlxalq Kitab Sərgisi keçiriləcək




Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə 5-9 oktyabr 2022-ci il tarixində Bakı Ekspo Mərkəzində 8-ci Bakı Beynəlxalq Kitab Sərgisi keçiriləcək.

Sərgidə 16 ölkədən 60-dan çox xarici təşkilat, 130 yerli nəşriyyat-poliqrafiya və kitab sənəti ilə əlaqəli müəssisə təmsil olunacaq.

Sərgidə Azərbaycanın xalq yazıçıları və şairləri, tanınmış gənc yazarlar və məşhur xarici yazıçılar və aktyorlar iştirak edəcəklər.

*davamı səh. 2-də*

## Paytaxtımızın memarlığı və tarixində polyak izləri

Sentyabrın 21-də Vyanadakı Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) Azərbaycan və Polşa arasında diplomatik əlaqələrin qurulmasının 30 illiyi münasibətilə "Bakının memarlığı və tarixində polyak izləri" adlı məruzə axşamı təşkil olunub.

AMM-in Azərbaycanın və Polşanın Avstriyadakı səfirlikləri və Vyana Polyak İnstitutu ilə birgə təşkil etdiyi tədbirdə azərbaycanlı və polyak diasporlarının üzvləri, Avstriya ictimaiyyəti nümayəndələri iştirak ediblər.

Mərkəzin rəhbəri Leyla Qasımova Azərbaycanın müxtəlif xalqların nümayəndələrinin dinc birgə yaşadığı ölkə olduğunu diqqətə çatdırıb. Qeyd edilib ki, bu sırada polyak icmasının da adı var və kiçik olmasına baxmayaraq, bu icmanın üzvləri Azərbaycan, xüsusilə də Bakının memarlığında silinməz izlər qoyublar.

Polşadakı səfirimiz Nərgiz Qurbanova çıxışında bu il iki ölkənin münasibətlərində dörd əlamətdar yubileyin qeyd edildiyini diqqətə çatdırıb. Bildirilib ki, 2022-ci il diplomatik münasibətlərin qurulmasının 30, Orta əsrlər Azərbaycanının (Ağqoyunlu dövləti) Polşa Krallığı ilə tarixi əlaqələrinin 550, iki ölkə arasında strateji tərəfdaşlığın 5 və Papa II İohann Pavelin Azərbaycana səfərinin 20-ci ildönümü ilə əlamətdardır.

*davamı səh. 3-də*

## Varşavada VI Beynəlxalq Türkologiya Konqresi

19-21 sentyabr tarixində Polşanın paytaxtı Varşavada VI Beynəlxalq Türkologiya Konqresi keçirilib. Varşava Universitetində keçirilən konqresdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu, Azərbaycan, Türkiyə, Qazaxıstan və Özbəkistanın Polşadakı səfirlikləri, eləcə də Yunus Əmrə İnstitutu, Karaim İrsi Fondu tərəfdaş qismində çıxış ediblər.

"Türk dünyası araşdırmaları – multidisiplinar perspektivlər" adlı konqresdə Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva fəxri qonaq qismində iştirak edib.

Fonddan bildirilib ki, Varşava Universitetinin prorektoru Zigmunt Lalak giriş sözündə Polşada 6-cı dəfə təşkil olunan konqresin əhəmiyyətindən danışaraq tədbirin türk xalqlarının zəngin keçmişinin, tarixinin, dilinin, mədəniyyətinin Avropada və dünyada təbliği istiqamətində böyük rol oynadığını bildirib.

Türkiyənin Polşadakı səfiri Cengiz Kamil Fırat hər bir türkün keçmişlə gələcək arasında körpü qurmasında türkologiya elminin önəminə toxunaraq ölkəsinin Türk dünyasının qədim irsinin təbliği ilə bağlı layihələrə hər zaman dəstək verdiyini bildirib.

*davamı səh. 3-də*

### VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı keçirilir



*səh. 2*

### AzTV-nin üç musiqi kollektivi Mədəniyyət Nazirliyinin tabeliyinə verilib

*səh. 2*



### Üzeyir Hacıbəyli festivalında musiqili tamaşa

*səh. 3*

№70 (1943)
23 sentyabr 2022
www.medeniyyet.az

# Bu bayraq burada əbədi dalğalanacaq

## Prezident İlham Əliyev: "Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik"

*əvvəli səh. 1-də*

26 avqust tarixində Laçın şəhəri ilə birlikdə Zabux və Sus kəndlərinin də işğalçılardan azad edildiyini deyən Azərbaycan Prezidenti vurğulayıb ki, biz şəhidlərimizin canı, qanı bahasına, qəhrəman əsgər və zabitlərimizin fədakarlığı sayəsində bu gün bu torpaqlardayıq: "Heç kim bu torpaqları bizə danışıqlar yolu ilə qaytarmayıb. Beynəlxalq təşkilatlar, o cümlədən BMT, onun Təhlükəsizlik Şurası, ATƏT işğalçı dövləti məcbur edib buradan çıxarmalı idi. Ermənistana qarşı sanksiyalar tətbiq edilməli idi. Bunların heç biri görülmədi... Mən isə həmişə deyirdim ki, Azərbaycan xalqı buna heç vaxt razı olmayacaq. Həmişə deyirdim ki, məsələ sülh yolu ilə həll olunmasa, bunu hərb yolu ilə həll edəcəyik və etdik. Cəmi 44 gün ərzində Ermənistan ordusunu darmadağın etdik. Alınmaz qala sayılan Şuşanı azad etdik. Cəbrayılı, Füzulini, Zəngilanı, Qubadlını, Hadrutu, Xocavəndi döyüş meydanında azad etdik. Düşmən diz çökdü və Laçını, Kəlbəcəri, Ağdamı tərk etməyə məcbur oldu. Bu gün Laçın şəhərində olarkən haqlı olaraq qürur hissi keçirirəm ki, qədim Azərbaycan torpağında bizim üçrəngli bayrağımız dalğalanır".

Dövlət başçısı qeyd edib ki, Azərbaycan müharibədən dərhal sonra Ermənistana sülh təklif etdi: "Bu da dünya hərb tarixində bəlkə də nadir hallardan biridir ki, 30 il ərzində torpağımız işğal altında olsun, insanlarımız əzab-əziyyət içində yaşasın, tarixi-dini abidələrimiz dağıdılsın, şəhərlərimiz dağıdılsın, milyondan çox mina döşənsin, buna baxmayaraq, biz sülh təklif etdik. Ancaq yenə də görürük ki, Ermənistan sülh istəmir, yenə də revanşist fikirlərlə yaşayır. Biz təklif etdik ki, delimitasiya prosesinə start verək. Bunu təxminən bir ildən çox müddət ərzində uzatdı. İndi isə bu proses başlasa da, sırf formal xarakter daşıyır, mahiyyət üzrə heç bir danışıqlar aparılmır, xəritələr üzrə heç bir müzakirə aparılmır. Biz bütün xəritələri hazırlamışıq. Həm XX əsrin xəritələrini, həm əvvəlki dövrün xəritələrini və delimitasiya işləri bu xəritələr üzrə aparılmalıdır.





Biz Ermənistanla sülh müqaviləsini imzalamaq üçün 5 prinsip təklif etmişik. Sözdə onları qəbul ediblər, amma biz bunu əməldə görmürük. Yenə də vaxt uzatma taktikası. Ermənistanın 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktına əsasən, erməni silahlı qüvvələri Qarabağdan çıxarılmalı idi. Hələ də tam çıxarılmayıb. Ermənistan Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikasının birləşməsini təmin edən dəhliz verməli idi. Bu günə qədər nəinki dəhliz verilməyib, hətta dəhlizin marşrutu bizə deyilməyib. Heç bir praktiki iş aparılmayıb. Biz isə indi dəmiryolunu Zəngilana qədər çəkmişik. Avtomobil yolunu Zəngilana qədər çəkmişik. Biz gələn ilin sonunda Ermənistan sərhədinə həm dəmiryolunu, həm avtomobil yolunu gətirəcəyik. Ancaq Ermənistan ərazisində heç bir iş görülmür və görünür ki, heç bir iş görmək istəmirlər. Yenə də vaxt uzadırlar.

Üstəlik, son aylar ərzində dəfələrlə bizə qarşı hərbi təxribatlar törədilirdi. Təkcə Laçın rayonu ərazisində 1400-dən çox yeni mina döşənmişdir və bu minalar 2021-ci ildə basdırılmışdır, yəni, müharibədən sonra. Bu, Azərbaycana qarşı açıq terror hərəkətidir. Müharibədən sonra 240-dan çox Azərbaycan vətəndaşı mina partlayışı nəticəsində ya həlak olub, ya da ağır yaralanıb. Yəni, bizə qarşı müharibə davam edir, bizim insanlarımız həlak olur. Biz buna imkan verə bilərikmi? Heç vaxt buna imkan verə bilmərik. Ermənistanı dəfələrlə xəbərdar etmişik, bu çirkin əməllərdən əl çəksin, peşman olacaq".

### Bu mövqelər bizə üstünlük verir və əraziyə nəzarət imkanı yaradır

Prezident sentyabrın 13-də Ermənistanın sərhəddə törətdiyi genişmiqyaslı təxribata da toxunub: "Azərbaycan Ordusu cavab verərək düşməni yenə də yerinə oturtdu. Ümid edirəm ki, nəhayət, bu, onlara dərs olacaq. Çünki gördülər ki, bizi heç kim və heç nə dayandıra bilməz. Heç kimin zəngi, heç bir bəyanat, heç bir təşəbbüs bizi dayandıra bilməz. Biz öz torpağımızdayıq və öz torpağımızı qoruyuruq. Sərhəd boyunca əldə etdiyimiz mövqelər imkan verir ki, biz istənilən erməni təxribatını qabaqcadan görək və lazımi tədbirlər görək. Biz ta Murov dağından Araz çayına qədər Azərbaycan-Ermənistan sərhədində əlverişli mövqelərdəyik. Bu mövqelər bizə həm hərbi üstünlük verir, həm böyük əraziyə vizual nəzarət imkanı yaradır, o cümlədən önəmli kommunikasiya xətlərinə nəzarət etməyə imkan verir və biz artıq bu bölgələrdə yerləşirik. Biz otuz il bu sərhədlərdə olmamışıq.

İkinci Qarabağ müharibəsi başa çatandan sonra biz sərhədlərə çıxdıq. Əgər Ermənistan bizi ittiham etmək istəyirsə ki, onların ərazisinə girmişik, bunun heç bir əsası yoxdur. Birincisi, əgər sərhəd onların dediyi yerdə idisə sərhədi quraydılar, sərhəd xətlərini inşa edəydilər, kommunikasiyaları, mühəndis işlərini quraydılar. Onlar hesab edirdilər ki, bütün Qarabağ və Zəngəzur onlara qalacaq. Məhz buna görə Azərbaycan-Ermənistan sərhədində heç bir iş görməmişdilər.

Yəni, bizim sərhədimizin delimitasiyası keçirilmədən heç kim deyə bilməz sərhəd haradan keçir. Mən yenə də deyirəm, biz müzakirələrə hazırıq və delimitasiya komissiyalarının – Azərbaycan-Ermənistan komissiyalarının işinə məsuliyyətlə yanaşırıq. Bütün xəritələri toplamışıq. Bir daha demək istəyirəm ki, bütün xəritələr, o cümlədən XIX əsrə, XX əsrə, ondan əvvəlki dövrə aid olan xəritələr bizdədir və o xəritələr açıq-aydın göstərir, kim hansı torpaqda yerləşibdir. Ona görə delimitasiya aparılmadan bizi heç kim ittiham edə bilməz".

Prezident vurğulayıb ki, düşmən bizə qarşı bir daha təxribat törədəcəksə, layiqli cavabını verəcəyik. Bu gün Ermənistan yaxşı fikirləşməlidir: "Bizimlə heç kim ultimatum dili ilə danışa bilməz və heç kimə də bel bağlamasınlar. Mən bir daha demək istəyirəm ki, bizi heç kim və heç nə dayandıra bilməz...".

"İndi isə vaxt gəlib çatıb ki, biz Laçın şəhərini bərpa edək" deyən İlham Əliyev əlavə edib ki, buna hazırlıq işləri görülür. Laçın şəhəri, Zabux kəndi, Sus kəndi, ilk növbədə, yenidən qurulacaq: "Şəhərin vaxtilə – 1980-ci illərdə tərtib edilmiş Baş Planı vardır. Bu, indi təhlil edilir, əlavələr olunacaqdır və Laçın şəhərini biz bərpa edəcəyik. Ümid edirəm ki, laçınlıların birinci qrupu Laçın şəhərinə gələn ilin sonuna qədər qayıda bilərlər. Mən buna ümid edirəm və əlimdən gələni edəcəyəm ki, biz buna nail olaq, tezliklə Laçın şəhərini bərpa edək. Biz bütövlükdə Laçın rayonunu və bütün başqa rayonları bərpa edəcəyik.

İndi Azərbaycan xalqı görür ki, biz nəyə qadirik. Görür ki, biz müharibədə də qələbə qazanırıq, həyatda da qələbə qazanırıq və bizi güclü edən xalqın iradəsidir, xalqın birliyidir. Müharibədə də Zəfərimiz xalqın birliyi nəticəsində olmuşdur. Bu gün quruculuq-abadlıq işlərini apararkən bizi gücləndirən xalqın iradəsi, dəstəyidir.

Bir daha demək istəyirəm, fəxr edirəm ki, Laçın şəhərinin mərkəzində milli bayrağımızı ucaltdım. Bu bayraq burada əbədi dalğalanacaq! Biz burada əbədi yaşayacağıq! Yaşasın Laçın! Yaşasın Azərbaycan!".

Daha sonra dövlətimizin başçısı Laçın şəhərinin mərkəzi küçəsində ermənilərin törətdikləri dağıntılara baxıb, şəhərin ərazisini seyr edib.

***

Qeyd edək ki, Prezident İlham Əliyev sentyabrın 21-də Laçın rayonuna səfəri zamanı Kəlbəcər-Laçın avtomobil yolunun 35-ci kilometrliyində Laçın Beynəlxalq Hava Limanına 2400 metr uzunluğunda giriş tunelinin inşası ilə tanış olub. Uzunluğu 76,3 kilometr olan Kəlbəcər-Laçın avtomobil yolu başlanğıcını Kəlbəcər rayonunun Qamışlı kəndindən götürməklə işğaldan azad edilmiş Laçın rayonunun ərazisindən keçir. Yeni yol bu rayonların bir çox yaşayış məntəqələri ilə yanaşı, rayon mərkəzinə və yenicə inşasına başlanılmış Laçın Beynəlxalq Hava Limanına qədər rahat gediş-gəlişi təmin edəcək.

Prezident "Azərenerji" ASC tərəfindən Laçın şəhərində inşa ediləcək "Laçın" qovşaq yarımstansiyasının təməlqoyma mərasimində də iştirak edib. Ümumi gücü 80 meqavatamper olacaq yarımstansiya qovşaq funksiyasını daşıyacaq. Füzulidəki "Şükürbəyli" yarımstansiyasından çıxaraq "Cəbrayıl", "Zəngilan", "Qubadlı" yarımstansiyalarına, oradan isə "Güləbird" SES ilə əlaqələnən xətt, "Daşkəsən" yarımstansiyasından "Kəlbəcər" və "Qorçu" yarımstansiyalarına çəkilən xətt, həmçinin "Şükürbəyli" yarımstansiyasından "Füzuli" və "Şuşa" yarımstansiyalarına gətirilən xətt "Laçın" şəhər yarımstansiyası ilə əlaqələndiriləcək. Bununla da Qarabağda və Şərqi Zəngəzurda enerjinin verilişində fasilə yaranmayacaq.

# AzTV-nin üç musiqi kollektivi Mədəniyyət Nazirliyinin tabeliyinə verilib

"Azərbaycan Televiziya və Radio Verilişləri" QSC-nin nəzdində fəaliyyət göstərən musiqi kollektivlərindən üçü Mədəniyyət Nazirliyinin tabeliyinə keçib.

QSC-nin Sosial media və ictimaiyyətlə əlaqələr şöbəsindən bildirilib ki, Səid Rüstəmov adına Xalq Çalğı Alətləri Orkestri, Niyazi adına Simfonik Orkestr, Cahangir Cahangirov adına Xor Kapellası artıq Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyət göstərəcək.

Bununla bağlı QSC-nin sədri Rövşən Məmmədovun və mədəniyyət nazirinin birinci müavini Elnur Əliyevin musiqi kollektivlərinin üzvləri ilə görüşü olub. Görüşdə musiqi kollektivlərinin bütün suallarına aydınlıq gətirilib.

Vurğulanıb ki, bu qərarın verilməsində məqsəd musiqi kollektivlərinin işini daha məhsuldar etmək və onların yaradıcılıq imkanlarını bir qədər də genişləndirməkdir. Bundan başqa, sənət adamlarının Mədəniyyət Nazirliyinin tabeliyində fəaliyyəti kollektivlərin peşəkarlıqlarının artırılması və karyera baxımından daha səmərəli mühit yaradacaq.

QSC sözügedən kollektivlərlə bundan sonra da birlikdə çalışacaq, konsert proqramları hazırlayarkən Mədəniyyət Nazirliyinin razılığına əsasən, musiqi kollektivləri ilə qonorar əsasında əməkdaşlıq edəcək.

Məlumatda bildirilir ki, sözügedən 3 musiqi kollektivindən başqa digər kollektivlər fəaliyyətlərini QSC-nin nəzdində davam etdirəcək.

# 8-ci Bakı Beynəlxalq Kitab Sərgisi keçiriləcək

*əvvəli səh. 1-də*




Eyni zamanda sərgi çərçivəsində uşaqlar və böyüklər üçün master klaslar, inklüzivlik və digər aktual mövzular üzrə kitab təqdimatları, imza günləri, konfranslar, simpoziumlar, qiraət və musiqi saatları və kitab sənayesi sektorunun subyektləri arasında əməkdaşlıq platformaları təşkil ediləcək. Sərgi müddətində müxtəlif formatda 200-dən çox tədbirin təşkili nəzərdə tutulur.

Xalq şairi Ramiz Rövşən və tanınmış şair, esseist Aqşin Yenisey 8-ci Bakı Beynəlxalq Kitab Sərgisinin "fəxri yazarları" olacaqlar. 5 gün ərzində hər iki şairin iştirakı ilə müxtəlif formatda tədbirlər təşkil ediləcək.

8-ci Bakı Beynəlxalq Kitab Sərgisinin "fəxri qonaq ölkəsi" Türkiyə Respublikasıdır. Türkiyə Respublikasının Mədəniyyət və Turizm Nazirliyi tərəfindən qardaş ölkənin mədəniyyətinin nümayişi məqsədilə sərgi salonunda və bir sıra mədəniyyət müəssisələrimizdə müxtəlif formatda silsilə tədbirlər keçiriləcək. Eyni zamanda Türkiyənin dünyaşöhrətli yazarları, tarixçiləri, elm adamları və aktyorları sərgidə iştirak edəcəklər.

Ziyarətçilərin "Elmlər akademiyası", "28 may" və "Koroğlu" metrostansiyalarından Bakı Ekspo Mərkəzinə xüsusi avtobuslar vasitəsilə gediş-gəlişi təmin ediləcək.

Sərginin iş vaxtı: 10:00-dan 20:00-dək.

# Anım Günü ilə əlaqədar mədəniyyət ocaqlarında tədbirlər təşkil olunacaq

*əvvəli səh. 1-də*

Muzeylərdə də bir sıra tədbir və layihələr nəzərdə tutulub.

Azərbaycan İstiqlal Muzeyinin direktoru Sədi Mirseyibli qeyd etdi ki, sentyabrın 23-də 3 nömrəli Uşaq-gənclər inkişaf mərkəzinin təşkilatçılığı ilə "Qələbəyə gedən yol" adlı ədəbi-bədii tədbir keçiriləcək. Tədbirdə mərkəzin dərnək üzvləri vətənpərvərlik mövzusunda şeirlər söyləyəcək, mahnılar səsləndirəcəklər. Sentyabrın 27-də İstiqlal Muzeyində 44 günlük Vətən müharibəsi şəhidlərinin xatirəsini yad etmək və vətənpərvərliyin təbliği məqsədilə davam edən "Qəhrəmanlar can verir yurdu yaşatmaq üçün" layihəsi çərçivəsində "Tarix yazaraq tarixə yazılanlar" adlı tədbir-sərgi keçiriləcək. Sərgidə muzeyin fondlarından şəhidlərimizə məxsus əşyalar nümayiş olunacaq.

Cəfər Cabbarlı adına Azərbaycan Dövlət Teatr Muzeyinin elmi katibi Aytən Məmmədova bildirdi ki, Anım Günü ilə bağlı sentyabrın 26-da mədəniyyət ocağında "Ömrünü Vətənə bağışlayanlar" adlı tədbir keçiriləcək. Vətən müharibəsində şəhid olan hərbçilərimizin ailə üzvləri, qazilər ağır, amma qürurverici müharibə haqqında öz xatirələrini danışacaqlar. Şəhidlərin xatirəsinə ithaf olunmuş kompozisiya ifa ediləcək.

Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova vurğuladı ki, sentyabrın 27-də muzeydə Anım Günü münasibətilə "Şəhidlər ölməz, Vətən bölünməz!" adlı tədbir keçiriləcək.

Anım Günü ilə bağlı həmçinin Səməd Vurğunun Ev-Muzeyində "44 günlük Vətən müharibəsi" adlı tədbir və qəhrəmanlarımıza həsr olunan onlayn sərgi, Abdulla Şaiqin Mənzil-Muzeyində "Zəfərə aparan yol" adlı tədbir, Nəriman Nərimanovun Xatirə Muzeyində isə "44 günlük Zəfər tariximiz" adlı sərgi açılacaq, "açıq qapı" təşkil olunacaq.

**Nurəddin**

# VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı başlayıb

## 33 ölkədən 60-dan çox film yarışır

Mədəniyyət Nazirliyi və bir sıra qurumların tərəfdaşlığı ilə 21-25 sentyabr tarixində VI "DokuBaku" Beynəlxalq Sənədli Film Festivalı keçirilir.

Sentyabrın 21-də XX-XXI əsrlər Azərbaycan Rəngkarlığı Muzeyində festivalın açılış mərasimi gerçəkləşdi.

Jurnalistlərə açıqlama verən festivalın direktoru İmam Həsənov qeyd etdi ki, festival hər il bir mövzuya həsr olunur: "Builki festivalın mövzusu "Təkamülə qarşı inqilab"dır. Bu mövzunu seçməkdə məqsədimiz odur ki, insanlar təbiəti və bir-birilərini qorusunlar. Burada kinonun, xüsusilə sənədli filmin böyük rolu var".

İmam Həsənov bildirdi ki, festivala bu il 100-dən artıq film təqdim olunub. 33 ölkədən 60-dan çox film seçilib, avstriyalı rejissor Maria Arlamovskinin "Robosevgi" filmi isə müsabiqədən kənar göstəriləcək.

Açılış mərasimindən öncə torpaqlarımızın azadlığı uğrunda şəhid olan Vətən övladlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Sonra "Robosevgi" filmi nümayiş olundu. Film gələcəkdə insanların və bəşəriyyətin süni intellektə daha çox üstünlük verməsi haqqındadır. Ekran əsərində insanın özünün əksi olan robotun yaranması və bu robotun gələcəkdə insan üçün törətdiyi fəsadlardan bəhs olunur.



Qeyd edək ki, festivalda filmlər "Ən yaxşı tammetrajlı sənədli film", "No-Main", "Ən yaxşı beynəlxalq və yerli qısametrajlı sənədli film", "Müsabiqədənkənar", "DokuKids" və "DokuUA" kateqoriyaları üzrə təqdim olunur. Münsiflər heyətinə tanınmış sənədli kino rejissorları, kino və foto dünyasının nümayəndələri daxildir. Onların arasında Mədəniyyət Nazirliyi Audiovizual və interaktiv media şöbəsinin müdiri Rüfət Həsənov, çoxsaylı mükafatlar laureatı, Kann Film Festivalının qalibi Sergey Dvortsevoy, dünya şöhrətli azərbaycanlı fotojurnalist Reza Deqati və "Emmy" mükafatı laureatı, "Oskar" mükafatının nominantı, prodüser Kirstin Barfod və digərləri var.

Hər il festival dünyaca məşhur bir rejissorun filmlərindən ibarət silsilə nümayiş təşkil edir. Bu il qazaxıstanlı rejissor, 2009-cu ildə "Oskar" mükafatının nominantı ("Zanbaq" filmi) olmuş Sergey Dvortsevoyun dörd filmindən ("Cənnət", "Qaranlıqda", "Çörək günü", "Magistral") ibarət retrospektiv hazırlanıb.

6-cı festivalın proqramına ilk dəfə uşaqlar üçün sənədli filmlər də daxil edilib. Bundan başqa, festival Ukraynadan sənədli filmlər nümayiş etdirməklə bu ölkənin rejissorlarına dəstək olacaq.

Builki festivalın xüsusi qonağı polşalı sənədli film rejissoru və ssenaristi, bir sıra festivalların laureatı Pavel Lozinskidir. O, festival çərçivəsində özünün rejissor, həyat yoldaşı Aqneşka Mankieviçin isə prodüseri olduğu "Balkon" filmini təqdim edəcək.

Festival çərçivəsində filmlər Nizami Kino Mərkəzi, Azərbaycan Dövlət Film Fondu, YARAT Müasir İncəsənət Məkanı, ARTIM Layihə Məkanı və "Kapellhaus" – Alman-Azərbaycan Mədəniyyət Birliyində nümayiş etdiriləcək.

Səsvermə onlayn və ənənəvi şəkildə baş tutacaq, daha sonra birgə müzakirə aparılacaq və hər bir kateqoriya üzrə qaliblər seçiləcək.

Qeyd edək ki, "DokuBaku" Azərbaycanda ilk beynəlxalq sənədli film festivalıdır. 2017-ci ildə İmam Həsənov və Veronika Yanatkova tərəfindən təsis olunan festivalın məqsədi beynəlxalq proqramda dünyanın müxtəlif ölkələrindən xüsusi seçilmiş sənədli filmlərin nümayişini, eləcə də yerli kinorejissorları və bu janrın istehsalına dəstək olmaq məqsədi daşıyan yerli müsabiqəni təqdim etməkdir.

**N.Məmmədli**

№70 (1943)
23 sentyabr 2022
www.medeniyyet.az



# Varşavada VI Beynəlxalq Türkologiya Konqresi

əvvəli səh. 1-də

Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondunun prezidenti Günay Əfəndiyeva müasir dövrdə türk mədəni irsinin elmi-konseptual səviyyədə araşdırılmasının və bu işə dünya türkoloqlarının cəlb edilməsinin böyük əhəmiyyət kəsb etdiyini bildirib: "Türk dünyası dedikdə, əlbəttə, yalnız türk xalqlarının yaşadığı geniş coğrafiya nəzərdə tutulmur. Türk dünyası türk xalqlarının sahib olduğu ortaq tarix, mədəniyyət, ədəbiyyat, dil, adət-ənənələri ehtiva edir. Bunların hər biri türk kimliyini formalaşdıran və onun sütununu təşkil edən amillərdir".

Türk dünyası ilə Polşa arasında münasibətlərin dərin köklərə söykəndiyini deyən G.Əfəndiyeva bu ölkədə türk əsilli milli azlıqlar olan tatarların və karaimlərin yaşadığını, onların irsinin qorunmasının təşkilatın maraq dairəsində olduğunu bildirib.

Günay Əfəndiyeva türkologiya elminin inkişafından da söz açıb: "Avropanın 30-a qədər ölkəsində türkologiya müstəqil elm kimi öyrənilir. Bu elm, sadəcə, şərqşünaslığın bir bölməsi kimi deyil, ayrıca elm olaraq qəbul edilir".

Eyni soydan gələn türk xalqlarının zaman-zaman çətin günlərin sınağından keçdiyini qeyd edən Fondun prezidenti, buna baxmayaraq, xalqlar arasında birliyin indiyədək davam etdiyini və getdikcə güclləndiyini vurğulayıb: "Biz iki il öncə, Azərbaycan öz ərazi bütövlüyünü bərpa edərək tarixi Qarabağ torpaqlarını qaytardığı zaman Türkiyənin göstərdiyi mənəvi dəstəyin nümunəsində bunun bir daha şahidi olduq".






Tədbirdə çıxış edən Azərbaycanın Polşadakı səfiri Nərgiz Qurbanova Azərbaycan xalqının Türk dünyasına qazandırdığı böyük elmi nailiyyətlərdən bəhs edərək 1926-cı ildə Bakıda keçirilən Birinci Türkoloji Qurultay haqqında məlumat verib.

Səfir hər bir xalqın dilinin onun milli varlığını təsdiq etdiyini söyləyib: "Tarix boyu türk dilləri içərisində Azərbaycan dilinin özünəməxsus yeri olub. XVI əsrdə Azərbaycan dili Səfəvilər dövlətinin rəsmi dövlət dili səviyyəsinə yüksəlib. Türk dünyası və müsəlman Şərqində ilk dünyəvi demokratik respublika olan Azərbaycan Xalq Cümhuriyyəti 1918-ci ildə Azərbaycan dilini dövlət dili elan edib...".

Qazaxıstanın Polşadakı səfiri Alim Kirabayev türk xalqlarının tarixinin, mədəniyyətinin, dilinin, ədəbiyyatının, siyasətinin Avropada araşdırılmasının böyük əhəmiyyət kəsb etdiyini bildirib. Səfir Qazaxıstanın və bütün türk dövlətlərinin çoxəsrlik dəyərlərinin beynəlxalq miqyasda tanıdılmasının önəmindən söz açıb, konqresin türk xalqları ilə Avropa xalqları arasında qarşılıqlı əlaqələrə töhfə verdiyini qeyd edib. Səfir bu il UNESCO səviyyəsində 150 illik yubileyi qeyd olunan qazax türkoloqu, şair Ahmet Baytursınulının Qazaxıstanın elmi və mədəni irsinin inkişafında xidmətlərindən danışıb.

Konqresin açılış mərasimində Varşava Universitetinin professoru Tadeusz Majda türkologiya elmi üzrə xidmətlərinə görə fəxri fərmanla təltif olunub.

Konqres çərçivəsində keçirilən panellərdə türkologiyaya dair müxtəlif mövzular müzakirə edilib.

***

Konqres çərçivəsində Azərbaycan musiqisi axşamı keçirilib. Beynəlxalq Türk Mədəniyyəti və İrsi Fondu və Azərbaycanın Polşadakı Səfirliyinin birgə əməkdaşlığı ilə təşkil olunan tədbirdə diplomatlar, türkoloq alimlər, Varşavanın ictimaiyyət və mədəniyyət nümayəndələri iştirak ediblər.

Varşava Universiteti Şərqşünaslıq fakültəsinin Türkologiya və Orta Asiya xalqları kafedrasının müdiri, professor Aqata Bareya-Stajinska konqres çərçivəsində keçirilən musiqi gecələrinin müxtəlif mədəniyyətlərin bir araya gəlməsində mühüm rolunu bildirərək tədbirin təşkilinə görə təşəkkür edib.

Fondun prezidenti Günay Əfəndiyeva Azərbaycanın muğam sənəti haqqında danışaraq Türk dünyasının zəngin mədəni irsindən bəhs edib.

Musiqi axşamında 2018-ci il Beynəlxalq Muğam Müsabiqəsinin qalibi Nisbət Sədrayeva, Rüstəm Müslümov (tar) və Elnur Salahovdan (kamança) ibarət muğam triosu qonaqlara unudulmaz anlar yaşadıb. Azərbaycan muğam və xalq mahnıları ilə yanaşı, qazax, qırğız, özbək və türk xalq mahnıları da səsləndirilib.

Tədbirdə Qarabağın tarixinin, zəngin mədəniyyətinin əks olunduğu sərgi nümayiş etdirilib. Qonaqlara Azərbaycan milli mətbəxinin nümunələri təqdim olunub.

# Azərbaycan və Litva müəlliflərinin əsərləri qarşılıqlı olaraq səhnəyə qoyulacaq



Mədəniyyət naziri Anar Kərimov sentyabrın 21-də Litvanın ölkəmizdəki səfiri Egidius Navikasla görüşüb.

Diplomatı salamlayan Anar Kərimov Azərbaycan və Litva arasında tarixi münasibətlərin olduğunu bildirib. İki ölkənin mədəniyyət sahəsində əməkdaşlığından məmnunluğunu ifadə edən nazir gələcəkdə də bu əlaqələrin daha da dərinləşməsinə səy göstəriləcəyini vurğulayıb.

Səfir Egidius Navikas da öz növbəsində mədəniyyətin müxtəlif istiqamətləri üzrə əməkdaşlığın əhəmiyyətini qeyd edib, muzey və kitabxana sahəsində birgə layihələrin həyata keçirilməsində maraqlı olduqlarını diqqətə çatdırıb.

Görüşdə Azərbaycan və Litva müəlliflərinin əsərlərinin qarşılıqlı olaraq iki ölkənin teatrlarında səhnəyə qoyulması ilə bağlı razılıq əldə olunub.

# Qoşulmama Hərəkatının UNESCO yanında qrupunun növbəti iclası

Parisdə, UNESCO-nun qərargahında Azərbaycanın sədrlik etdiyi Qoşulmama Hərəkatının (QH) UNESCO yanında qrupunun 2022-ci ildə üçüncü iclası keçirilib. İclasa Azərbaycanın UNESCO yanında daimi nümayəndəsi Elman Abdullayev sədrlik edib.




İclasın gündəliyi qəbul olunduqdan sonra daimi nümayəndə QH ölkələrinin UNESCO-ya yeni təyin olunmuş səfirlərini salamlayaraq, onlara işlərində uğurlar arzulayıb.

Sonra o, cari ilin iyun ayında keçirilmiş iclasdan sonra Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi çərçivəsində həyata keçirdiyi işlərdən danışıb.

QH ölkələrinin səsinin UNESCO platformasında daha yaxşı eşidilməsi üçün İcraiyyə Şurasında (İŞ) bu ölkələrin səfirlərinin koordinasiya qrupunun yaradılmasını xatırladan E.Abdullayev bildirib ki, oktyabr ayında keçiriləcək İŞ-nin sessiyası zamanı müəyyən mövzular üzrə çıxışlar ediləcək. Bir sıra səfirlər qeyd olunan təşəbbüsü təqdir edərək dəstəklərini dilə gətiriblər.

İclas Qoşulmama Hərəkatına üzv ölkələrin UNESCO orqanlarına namizədliyinə və müxtəlif məsələlərə dair müzakirələrlə davam edib.

# İçərişəhər Ağsaqqallar Şurasının üzvləri ilə görüş

Sentyabrın 20-də "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsi İdarə Heyətinin sədri Şahin Seyidzadə İçərişəhər Ağsaqqallar Şurasının üzvləri – Miniatür Kitab Muzeyinin yaradıcı və təsisçisi, Əməkdar mədəniyyət işçisi Zərifə Salahova, Azərbaycan Dövlət İqtisad Universitetinin prorektoru Səadət Qəndilova, Prezident yanında Dövlət İdarəçilik Akademiyasının rektoru Urxan Ələkbərov və keramika ustası, heykəltəraş-rəssam Mir Teymur Məmmədov ilə görüşüb.

İdarənin mətbuat xidmətindən bildirilib ki, sədr İçərişəhər sakinləri ilə sıx münasibətlərin qurulmasında Şura üzvlərinin mühüm rolundan danışıb.

Görüşün sonunda Ş.Seyidzadə Şura üzvlərinə təşəkkürnamə təqdim edib.

Xatırladaq ki, "İçərişəhər" Dövlət Tarix-Memarlıq Qoruğu İdarəsinin nəzdində 2009-cu ildə yaradılmış İçərişəhər Ağsaqqallar Şurasının məqsədi ictimai rəyi nəzərə alaraq mövcud məsələlərin həllində şəffaflığı, obyektivliyi təmin etməkdir.

# "Əziz dostum Üzeyir!"

## Rostropoviçlərin muzeyində mühazirə

Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Leopold və Mstislav Rostropoviçlərin Ev-Muzeyində tədbir təşkil edilib.




Muzeyin böyük elmi işçisi Səbinə Qurbanova və elmi işçisi Rəhimə Həsənova Tofiq Quliyev adına 12 nömrəli onbirillik Musiqi məktəbi, Bülbül adına Orta İxtisas Musiqi məktəbinin şagirdlərinə "Əziz dostum Üzeyir!" adlı elmi mühazirə keçiblər.

Mühazirədə Leopold Rostropoviç və Üzeyir Hacıbəylinin dostluq və yaradıcılıq əlaqələrindən bəhs edilib, muzeyin fondu və ekspozisiyasında yer alan nadir eksponatlardan ibarət videoçarx göstərilib.

Sonda şagirdlər Üzeyir Hacıbəylinin "Koroğlu" operasından uvertüraya – Mstislav Rostropoviçin dirijorluq etdiyi konsertdən kadrlara baxıblar.

# Rusiyalı aktyorlar Bakıda "Sevginin kökü"nü nümayiş etdirəcəklər

Dekabrın 7-də Heydər Əliyev Sarayında A.Çexov adına Moskva Bədaye Teatrının aktyorları – Rusiyanın Xalq artisti Dmitri Nazarovun və Əməkdar artist Olqa Vasilyevanın iştirakı ilə "Sevginin kökü" adlı antrepriz tamaşa oynanılacaq.



Tamaşa müasir rus dramaturqu Anna Beryozanın "Yaşıl göl. Qırmızı su" və "Esxatoloji romans" pyeslərinin sintezi əsasında hazırlanıb. Bu günlərdə Bakıya gələn sənətçilər Heydər Əliyev Sarayında mətbuat konfransı keçiriblər.

Bakıda ilk dəfə olduqlarını diqqətə çatdıran aktyorlar deyiblər: "Bu şəhərdə Odessanın, İtaliya şəhərlərinin, Moskvanın, habelə Nyu-Yorkun əlamətləri görünür. Bütün bunlar çox gözəl harmoniya yaradır. Şəhərdə Azərbaycan xalqına xas olan qonaqpərvərlik, səmimiyyət və xeyirxahlıq hiss olunur. Bakı çox xoşumuza gəldi, ona görə gələcəkdə bəzi layihələrimiz ola bilər. Gələcəkdə müxtəlif mədəniyyətlərin sintezini yaratmaq istərdik, çünki teatr sənəti bunu özündə birləşdirə bilər. Bakıdakı Akademik Rus Dram Teatrı ilə birgə layihədə iştirak etmək olardı. Biz belə təklifləri qəbul etməyə hazırıq...".




# Paytaxtımızın memarlığı və tarixində polyak izləri

## Vyanada məruzə axşamı

əvvəli səh. 1-də

Qeyd edilib ki, 20-ci əsrin əvvəllərində polyaklar Azərbaycanda memar və hüquqşünas, mühəndis və ziyalı, müəllim və hərbi qulluqçu, biznesmen və dövlət xadimi kimi fərqləniblər. Xalq Cümhuriyyətinin yaradılmasında da yaxından iştirak edən polyak vətəndaşlarımız hökumət strukturlarında, parlamentdə və məhkəmə sistemində təmsil olunaraq Azərbaycanın maraqları üçün səylərini əsirgəməyiblər.

Vyana Polyak İnstitutunun direktoru Monika Şmiqiel-Turley ikitərəfli münasibətlərin yüksək səviyyədə inkişafından məmnunluğunu ifadə edib və hətta Avstriyada – hər iki ölkənin hüdudlarından kənarda da bu sıx əlaqələrin mövcud olduğunu vurğulayıb. O, mədəniyyət mərkəzləri arasında əməkdaşlığın bundan sonra da davam etdiriləcəyinə ümidvar olduğunu diqqətə çatdırıb.

Sonra tanınmış tarixçi, "Bakının sirləri" verilişinin müəllifi, şərqşünas və araşdırıcı Fuad Axundov Azərbaycandakı polyak icmasının tarixi, Bakının inkişafı və memarlıq üslubunun formalaşmasında xüsusi rol oynamış polyak əsilli memar və mühəndislər barədə məruzə ilə çıxış edib. XIX əsrin sonu və XX əsrin əvvəllərində baş verən neft bumu barədə danışan F.Axundov bu proses nəticəsində Bakı şəhərinin sənaye və mədəniyyət mərkəzinə çevrildiyini diqqətə çatdırıb. Qeyd edilib ki, həmin dövrdə əhalinin sürətli artımı, sonrakı onilliklərdə şəhəri formalaşdıracaq böyük etnik və mədəni müxtəlifliyə səbəb olub. Polyak icması sayca az olmasına baxmayaraq, Bakının ən nüfuzlu qruplarından biri sayılırdı və şəhərin sosial və ictimai həyatında çox mühüm rol oynayırdı.

Yozef Qoslavski, Yozef Ploşko, Kazimierz Skoreviç və Yevgenius Skibinski kimi görkəmli memar və inşaat mühəndisləri Bakının abadlaşması, memarlıq üslubunun formalaşması və günümüzə kimi Bakının gözəlliyinə rəng qatan tarixi binaların tikintisinə rəhbərlik ediblər. Eyni zamanda polyak memarlar Şamaxı və Gəncədə də fəaliyyət göstəriblər.

Polyak memarları sayəsində Bakı şəhərinin "Qafqazın Parisi" kimi şöhrət qazandığını deyən tarixçi polyak mühəndislərin neft sənayesinin inkişafına da töhfələr verdiyini diqqətə çatdırıb. Həmçinin qeyd edilib ki, "Armija Krajowa"da Polşa uğrunda mübarizə aparmış azərbaycanlı polkovnik Vəli bəy Yadigar və əslən Polşa tatarı olan Azərbaycan Xalq Cümhuriyyəti dövründə Baş Qərargah rəisi olmuş general Maçey Sulkeviçin xatirəsi hər birimiz üçün əzizdir.

Məruzədən sonra Avstriyada yaşayan musiqiçilər Fərid Feyzullayev (skripka) və Piotr Yavorski (fortepiano) Azərbaycan və Polşa bəstəkarlarının əsərlərindən ibarət klassik musiqi proqramı ilə çıxış ediblər.



# "Qələbədir adın"

## Üzeyir Hacıbəyli festivalında musiqili tamaşa

Sentyabrın 18-də başlayan Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı maraqlı tədbir və təqdimatlarla davam edir. Proqram üzrə sentyabrın 21-də Beynəlxalq Muğam Mərkəzində bəstəkar Pikə Axundovanın "Qələbədir adın" musiqili monotamaşası nümayiş olundu.

Rejissoru Mirsahib Ağazadə və Elçin Məmmədov olan səhnə əsərinin librettosunu Kəmalə Abıyeva yazıb. Tamaşada baş rolu Əməkdar artist, vokalçı İlham Nəzərov ifa edir.

Tamaşanın nümayişindən öncə həm də layihənin ideya müəllifi olan İlham Nəzərovun düşüncələrini öyrəndik. O, belə bir əsəri tamaşaçı auditoriyasına təqdim etməkdən fəxr duyduğunu bildirdi: "İlk dəfədir biz Azərbaycanda belə bir tamaşa nümayiş etdiririk. Tamaşada bir vokalçı müxtəlif tembrlərdə ifa edir. Layihənin ideyasını bu ilin yanvar ayında düşündüm. Süjet xətti və obrazlar haqqında bəstəkar Pikə Axundovaya danışdım və daha sonra biz libretto üçün Kəmalə Abıyevaya müraciət etdik. Səhnədə ilk dəfə oğlum Səid Nəzərli də mənimlə birgə çıxış edəcək. O, bu il G.Şaroyev adına 35 nömrəli Musiqi məktəbinin 1-ci sinfinə daxil olub".

İfaçı qeyd etdi ki, bütün yaradıcı heyət üçün auditoriyanın münasibəti əsas şərtdir. Biz inanırıq ki, izləyicilər vətənpərvərlik ruhunda olan bu tamaşanı bəyənəcəklər.

Daha sonra "Qələbədir adın" monotamaşası nümayiş olundu. Tamaşaçılar tərəfindən böyük maraqla qarşılanan səhnə işinin süjet xətti bir neçə simvolik obraz əsasında qurulub: Şuşa, Xarıbülbül, Düşmən, Həsrət, Ana və Qələbə. Hər bir obraz ayrıca kompozisiya kimi təqdim edilir. Səhnədə bir-birini əvəz edən obrazlar bütöv bir əsər yaradaraq ümumi fikir və hekayə nəql edir.

Tamaşa Şuşanın gözəlliyi, füsunkar təbiəti, memarlığı, tarixi və mədəni irsini tərənnüm edən kompozisiya ilə başlayır. İlham Nəzərov dastançı obrazında tamaşaçıları özü ilə Azərbaycanın mədəniyyət paytaxtı Şuşaya xəyali səyahətə aparır. O, daha sonra bir neçə fərqli obrazda səhnədə görünür. Məharətlə obrazdan-obraza girən sənətçi plastik və vokal qabiliyyətini nümayiş etdirir. Mürəkkəb hissələrin öhdəsindən ustalıqla gələn ifaçının səsi xarakterdən-xarakterə dəyişir, tamaşaçılar səhnədən həm tenor, həm dramatik və lirik bariton, həm mezzo-soprano, hətta meyxananı xatırladan reçitativ improvizasiyalar eşidirdilər.

Tamaşanın təsirli məqamlarından biri də Ana obrazının təqdimidir. Bu bəstə və ifa igid oğullar böyüdən, Vətəni çox sevən və onun uğrunda canından keçən fədailərə həsr olunub. Ana obrazını Əməkdar artist Yaqut Paşazadə ifa edir. Onun oğlunu isə gənc aktyor Əli Əsədov canlandırır.

Əməkdar artist Viktoriya Şahmuradova Xarıbülbül obrazında səhnəyə çıxmışdı. Vokal ifanın sədaları altında xoreoqraf düşmən tapdağı altında qalan bu incə çiçəyin gözəlliyini, iztirab və çırpıntılarını sözsüz olaraq öz plastika və jestləri ilə təqdim edir.

Alqışlarla qarşılanan monotamaşa 44 günlük Vətən müharibəsində şanlı Ordumuzun Qələbəsini simvolizə edən hissə ilə başa çatır. Tamaşa haqqında daha ətraflı gələn sayımızda.

**Lalə Azəri**

# Yerlərdə mədəni fəaliyyət günün tələblərinə nə dərəcədə cavab verir?

əvvəli səh. 1-də

Göyçay rayon MKS-nin Mərkəzi Kitabxanasına baxış keçirən nazir kitabxananın ümumi fəaliyyəti, kitab fondu, oxucu sayı barədə məlumat alıb.

Nazir yerli əhəmiyyətli memarlıq abidəsi Yeraltı hamama (inv. № 4269) da baxış keçirib. Məlumat verilib ki, Göyçayın imkanlı şəxslərindən olan Həzrət bəy Ağazadə bu hamamı qızına cehiz olaraq tikdirib. Yeraltı hamam adı ona əsas hissəsi torpağın səthindən 2 metr dərinlikdə yerləşdiyi üçün verilib.

Qeyd edək ki, sözügedən müəssisələrin yerləşdiyi binaların qarşısında tikilinin təyinatı, maddi-texniki vəziyyəti və fəaliyyətinin əsas istiqamətlərinin əks olunduğu lövhələr də quraşdırılıb.

Səfər çərçivəsində Anar Kərimov Göyçayın qəhrəman oğullarının uyuduğu Şəhidlər xiyabanını ziyarət edib, Vətən uğrunda canından keçən fədailərin xatirəsinə dərin ehtiramını bildirib.

Sonra nazir Göyçay rayonunda Azərbaycanın şair və yazıçılarının xatirəsinin əbədiləşdirilməsi üçün 2018-ci ildə yaradılan "Əbədiyaşar ədiblər" abidə kompleksinə baş çəkib.





Mədəniyyət naziri Göyçay şəhərinin mərkəzində 1903-cü ildə inşa edilən yerli əhəmiyyətli memarlıq abidəsi olan məsciddə də baxış keçirib. Məlumat verilib ki, müvafiq dövlət qeydiyyatında olan (inv. № 4268) məscidin binasında 2018-2019-cu illərdə əsaslı yenidənqurma işləri aparılıb. Qeyd edək ki, dini abidənin memarı Azərbaycanın ilk ali təhsilli memarı Zivər bəy Əhmədbəyovdur.

Anar Kərimov Xalq şairi Rəsul Rzanın Göyçay şəhərindəki ev-muzeyində də olub. Məlumat verilib ki, 2004-cü ildə yaradılan muzeyin ekspozisiya planı 2015-ci ildə yenilənib. Eksponatların çox hissəsi Yazıçılar Birliyinin sədri, Xalq yazıçısı Anar tərəfindən muzeyə bağışlanıb. Muzeyin ümumi fondunda 1085 eksponat var və onlardan 449-u daimi ekspozisiyada yer alır.

Qeyd edək ki, muzeyin binası 2022-ci ildə yeni aşkar olunmuş abidələrin siyahısına əlavə edilib.

Göyçay Rayon Heydər Əliyev Mərkəzinə gələn nazir burada ulu öndərin həyat və fəaliyyətinin müxtəlif dövrlərini, Göyçaya səfəri zamanı rayon ictimaiyyəti ilə keçirdiyi görüşləri əks etdirən fotolara və eksponatlara baxıb, mərkəzdə quraşdırılmış monitorlarda ümummilli liderin siyasi fəaliyyətindən bəhs edən videogörüntüləri izləyib. Nazirə müəssisənin fəaliyyəti barədə ətraflı məlumat verilib.

Daha sonra nazir Anar Kərimov rayon Heydər Əliyev Mərkəzində Ağdaş, Ucar, Zərdab və Göyçay rayonlarında fəaliyyət göstərən mədəniyyət işçiləri ilə görüş keçirib. Görüşdə nazirliyin məsul əməkdaşları da iştirak ediblər.

Nazir çıxış edərək bildirib ki, müntəzəm olaraq bölgələrə səfərlərinin əsas məqsədi yerlərdə mədəniyyət müəssisələrinin fəaliyyəti ilə tanış olmaq, mövcud imkanları müəyyənləşdirmək, mədəniyyət və incəsənət sahəsində fəaliyyət göstərən şəxsləri nazirliyin prioritetləri və qarşıya qoyulan məqsədləri barədə yerində məlumatlandırmaqdır. Həmin şəxslərin nazirlik tərəfindən aparılan islahatlara cəlb edilərək mədəniyyət sahəsinin dayanıqlı inkişafına töhfə verməsi də qarşıda duran əsas vəzifələrdəndir.

Görüş zamanı mədəniyyət müəssisələrində mövcud olan problemlərdən söz açılıb, onların həlli yolları ilə bağlı təkliflər dinlənilib.

Anar Kərimov bölgələrdə mədəniyyət işçiləri arasında peşəkarlıq səviyyəsinin, təşəbbüskarlığın artırılmasının dövrün vacib tələbi olduğunu diqqətə çatdırıb.

Nazir çıxışının sonunda problemlərin aradan qaldırılması, müəssisələrin daha səmərəli fəaliyyətinin təşkili ilə bağlı müvafiq tapşırıq və tövsiyələrini verib.

Görüşdən sonra Anar Kərimov Ağdaş Mədəniyyət Mərkəzinin nəzdində fəaliyyət göstərən Xalq teatrı kollektivinin tamaşasını izləyib.

## Şamaxıda kitab sərgi-yarmarkası

Şamaxıdakı Heydər Əliyev adına parkda kitab sərgi-yarmarkası təşkil olunub.



Rayon İcra Hakimiyyəti və "TEAS Press" Nəşriyyat Evi tərəfindən təşkil edilən sərginin məqsədi xalqımızın tarixinə hər zaman iftixarla öyünəcəyimiz qəhrəmanlıq salnaməsi yazan şəhidlərimizin xatirəsini əbədi yaşatmaqla yanaşı, cəmiyyətdə kitaba olan marağın artırılması və mütaliə mədəniyyətinin təbliğidir.

Tədbirdə rayon rəhbərliyi, Milli Məclisin deputatı Tamam Cəfərova, yazıçılar, kitabsevərlər iştirak ediblər.

İki gün davam edən sərgi-yarmarkaya dünya klassiklərinin və uşaq ədəbiyyatı nümunələri də daxil olmaqla ümumilikdə, 104 adda 1300-ə yaxın kitab çıxarılıb.

Sərgi çərçivəsində tanınmış yazıçılar Reyhan Yusifqızı, Zahid Xəlil və Elxan Elatlının imza mərasimləri təşkil olunub.

## Gəncədə "Şuşanamə" kitabının təqdimatı

Gəncə Regional Mədəniyyət İdarəsi və Gəncə Şəhər İcra Hakimiyyətinin birgə təşkilatçılığı ilə Mir Cəlal Paşayevin Ev-Muzeyində Azərbaycan Yazıçılar Birliyinin üzvü, Prezident təqaüdçüsü, alim-şair Bayram Ağrıdağın (Apoyev) "Şuşanamə" kitabının təqdimat mərasimi keçirilib.



Təqdimatda Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Gəncə RMİ-nin rəisi Vasif Cənnətov, AMEA Gəncə Bölməsinin sədri, akademik Fuad Əliyev və digər qonaqlar iştirak ediblər.

Niyazi Bayramov çıxışında bildirib ki, Şuşa fatehləri və Qarabağ şəhidlərinə həsr olunan "Şuşanamə" kitabı şəhidlərimizin xatirəsinin daim əbədi saxlanılması üçün atılan addımlardan biridir.

Vasif Cənnətov Bayram Ağrıdağı bütün mədəniyyət işçiləri adından təbrik edərək ona yaradıcılıq uğurları arzulayıb.

Çıxış edən digər qonaqlar yazıçının həyat və yaradıcılığından söz açıb, kitabın məziyyətlərindən danışıblar.

"Şuşa İli" və Şuşa fatehlərinə ithaf olunan kitabda müəllifin vətənsevərlik ruhlu şeirləri yer alıb.

## "44 gün – tarixi Zəfər"

Masallı RMİ Nizami Gəncəvi adına Masallı rayon Mədəniyyət Mərkəzində Mədəniyyət Nazirliyinin tabeliyindəki Respublika Xatirə Kitabı Redaksiyası tərəfindən çap edilən "44 gün – tarixi Zəfər" adlı üçcildliyin I cildinin ("A-Ə" hərfləri üzrə) təqdimatı keçirilib.



Masallı RMİ-nin rəisi Bəxtiyar Qılıncov çıxış edərək tədbir barədə iştirakçılara məlumat verib.

Respublika Xatirə Kitabı Redaksiyasının baş redaktoru Nəzakət Məmmədova təqdimat mərasiminin sayca üçüncü olduğunu, ilk təqdimat mərasiminin Silahlı Qüvvələr Günündə Bakı şəhərində, ikincisinin isə bu ilin iyulunda Gəncə şəhərində keçirildiyini bildirib.

Digər çıxış edənlər nəşrin əhəmiyyətindən danışıb, şəhidlərimizə rəhmət diləyiblər.

Qeyd edək ki, kitabın I cildində min nəfərə yaxın döyüşçü – Aprel döyüşlərində, Tovuz hadisələrində, həmçinin Vətən müharibəsində həlak olmuş şəxslər barədə ensiklopedik məlumat verilib.

**Hazırladı: N.Məmmədli**

## Ustad dərsi, müşavirə, müsabiqə, sərgi...



Şəki Regional Mədəniyyət İdarəsi (RMİ) Oğuz Rayon Tarix-Diyarşünaslıq Muzeyi Xan qızı Xurşidbanu Natəvanın (1832-1897) 190 illiyinə həsr olunmuş "Zərif qadın əlləri" adlı sərgi təşkil edib. Muzeydə bir neçə gün davam edən sərgini məktəblilər, rayon ictimaiyyətinin nümayəndələri ziyarət ediblər.

***

Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində Gənclərin İnkişaf və Karyera Mərkəzi Ağcabədi nümayəndəliyinin təşkilatçılığı ilə gənc könüllülər üçün "Ailə psixologiyasında əsas anlayışlar", "Reproduktiv sağlamlıq" və "İctimaiyyətlə əlaqələrin yeni mediada rolu" mövzularında təlimlər keçirilib. Təlimlər zamanı gənclər arasında komanda işləri həyata keçirilib, iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

***

Bərdə RMİ tərəfindən respublikanın aparıcı bədii təhsil müəssisələrinin təcrübəli müəllimlərinin, tanınmış incəsənət xadimlərinin iştirakı ilə tabe uşaq musiqi və incəsənət məktəblərində ustad dərsləri təşkil edilir. Sözügedən istiqamət üzrə növbəti ustad dərsləri Bərdə və Yevlax rayonlarında fəaliyyət göstərən uşaq musiqi və incəsənət məktəblərində keçirilib. Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının Metodika və xüsusi



pedaqoji hazırlıq kafedrasının dosenti, pedaqogika üzrə fəlsəfə doktoru Yeganə Mustafayeva tərəfindən keçirilən ustad dərsləri dahi bəstəkar, SSRİ Xalq artisti Fikrət Əmirovun (1922-1984) 100 illiyinə həsr olunub.

***

Sumqayıt RMİ-nin rəisi Rəşad Əliyevin iştirakı ilə şəhər Heydər Əliyev Mərkəzində Sumqayıtda yerləşən tabe müəssisə rəh-



bərlərinin müşavirəsi keçirilib. Mədəniyyət müəssisələrində şəhidlərə həsr olunmuş xatirə gecələrinin, vətənpərvərlik mövzusunda tədbirlərin keçirildiyini vurğulayan Rəşad Əliyev şəhid ailələrinə və qazilərə hər zaman xüsusi diqqət göstərilməsinin zəruri olduğunu qeyd edərək bu istiqamətdə müvafiq tapşırıqlarını verib.

Sumqayıt RMİ Bülbül adına 2 nömrəli Sumqayıt şəhər Uşaq incəsənət məktəbinin rəssamlıq ixtisası üzrə şagirdləri istedad müsabiqəsində uğur qazanıblar. Azərbaycanda fəaliyyət göstərən "Sehrli Aləm" Cəmiyyəti tərəfindən türkdilli dövlətlər arasında keçirilən "Pöhrə – 2022" istedad müsabiqəsinə qatılan Kamilla Ələsgərova Qran-pri mükafatına, Nərgiz Əmirova və Emilya Cəfərova isə I yerə layiq görülüblər. Müsabiqəyə şagirdləri hazırlayan məktəbin müəllimi Firuzə Rüstəmova "Yaradıcı müəllim" diplomu ilə təltif olunub.

## Müasir tariximizin şanlı qəhrəmanları



Sumqayıt RMİ, şəhər İcra Hakimiyyəti və "Leyla Babazadeh Fashion School"un birgə təşkilatçılığı ilə Sumqayıt şəhər Poeziya evində şəhid və qazi övladları ilə görüş təşkil olunub.

Görüşdə idarə rəisi Rəşad Əliyev, şəhər İcra Hakimiyyətinin şöbə müdiri Tərlan Hacızadə çıxış edərək şəhid övladlarını yeni dərs ili münasibətilə təbrik edib, onlara müvəffəqiyyətlər arzulayıblar.

Sumqayıt şəhər Mədəniyyət evinin kollektivi tərəfindən Vətən müharibəsi şəhidi Elmar Nəsibovun doğum gününə həsr olunmuş "Şanlı tariximizin qəhrəmanı" adlı ədəbi-bədii gecə keçirilib. Tədbirdə şəhidin həyat və döyüş yolu haqqında məlumat verilib. Bədii hissədə vətənpərvərlik ruhunda mahnılar ifa olunub.

***

Masallı RMİ Masallı rayon Mərkəzi Kitabxanasında Vətən müharibəsi şəhidi Nurlan Malikovun doğum günü münasibətilə "Vətəni ucaldan şəhidlər" mövzusunda tədbir keçirilib.

Nurlan Dünyamalı oğlu Malikov 1996-cı il sentyabrın 19-da Masallı rayonunun Öncəqala kəndində anadan olub. Vətən müharibəsində onun da üzvü olduğu döyüşçü dəstəsi Zəngilandan Qubadlıya hərəkət edərkən düşmənin hücumuna məruz qalıb. Şəxsi heyətin bir hissəsi şəhid olub, Nurlan isə itkin düşüb. Şəhidin nəşi ölümündən təxminən 70 gün sonra tapılıb. Nurlan Malikov 2020-ci il dekabrın 31-də doğulduğu Öncəqala kənd qəbiristanlığında torpağa tapşırılıb. Ölümündən sonra "Qubadlının azad olunmasına görə", "Vətən uğrunda" və "İgidliyə görə" medalları ilə təltif olunub.

***



Ağcabədi RMİ Ağcabədi rayon Heydər Əliyev Mərkəzində 27 sentyabr – Anım Günü ilə əlaqədar "Qələbəmizin ruhu naminə" adlı sərgi təşkil edilib. 8 noyabr – Zəfər Gününədək davam edəcək sərgidə şəhidlərimizin şəkillərinin dərc olunduğu jurnallar, vətənpərvərlik, müstəqillik haqqında kitablar, eləcə də mərkəzdə fəaliyyət göstərən kurs üzvlərinin əl işləri nümayiş olunur.

## Dünyanı sülh xilas edəcək

21 sentyabr – Beynəlxalq Sülh Günü ilə bağlı bölgələrdəki mədəniyyət müəssisələrində tədbirlər keçirilib. BMT Baş Assambleyası tərəfindən 1981-ci ildə təsis edilən əlamətdar gün bir neçə ildir ölkəmizdə də qeyd olunur.

Şəki RMİ Oğuz rayon MKS-nin Kərimli kənd kitabxanasında "Sülh dinclik, əmin-amanlıq, qurub-yaratmaq deməkdir" mövzusunda tədbir keçirilib. Çıxışlarda qeyd olunub ki, sülh bəşəriyyət üçün vacibdir, əmin-amanlığa, dinc yanaşı yaşamağa çağırışdır. Sülhün qorunması gələcəyimizin qorunması deməkdir.

***

Ağstafa RMİ Ağstafa rayon Heydər Əliyev Mərkəzində "Sülh – bəşəriyyətin xilası" adlı tədbir keçirilib. Tədbirdə rayon Heydər Əliyev Mərkəzi, rayon MKS-nin 2 saylı kitabxana filialı və Ağstafa Gənclər evi sosial xidmət müəssisəsinin əməkdaşları və könüllüləri iştirak ediblər.

Ağstafa Dövlət Rəsm Qalereyasında "Sülh inkişafın əsas təməlidir" adlı rəsm sərgisi təşkil edilib. Sərgidə dərnək üzvlərinin əl işlərindən ibarət rəsm əsərləri nümayiş olunub.



Tovuz Dövlət Rəsm Qalereyasında "Dünyanı sülh xilas edəcək" adlı dərnək üzvlərinin əl işindən ibarət rəsm sərgisi təşkil olunub.

Qazax rayon Mədəniyyət Mərkəzində "Silahları yandırın!" adlı tədbir keçirilib. Tədbirdə çıxış edən mərkəzin direktoru Zahidə Həsənova, metodist Məfrubə Mehdiyeva Sülh Gününün tarixindən, sülhün bütün bəşəriyyət üçün əhəmiyyətindən danışıblar.



***

Sabirabad RMİ Şirvan şəhər Mərkəzi Kitabxanasında 21 sentyabr – Beynəlxalq Sülh Günü münasibətilə "Dünyamıza sülh gərəkdir" adlı tədbir keçirilib. Tədbirdə Şirvan şəhər Mərkəzi Kitabxanasının Oxuculara xidmət şöbəsinin müdiri İlhamə İmanova çıxış edərək sülhün bəşəriyyət üçün zəruriliyini bildirib.




# “Mən, sən, o və telefon”

Azərbaycan Dövlət Akademik Rus Dram Teatrının səhnəsində oktyabrın 7-də və 8-də Xalq yazıçısı Anarın əsəri əsasında hazırlanmış “Mən, sən, o və telefon” tamaşasının premyerası olacaq.

Tamaşanın quruluş müəllifi Sankt-Peterburqda (Rusiya) yaşayan həmyerlimiz, istedadlı rejissor Ərşad Ələkbərovdur. Quruluşçu rəssam da Rusiyadan dəvət olunmuş Kristina Danilinadır.

Xatırladaq ki, Ərşad Ələkbərov Rusiyada, Qazaxıstanda tamaşalar qoyub. Bu, onun Akademik Rus Dram Teatrı ilə ilk əməkdaşlıq təcrübəsi deyil. Bundan əvvəl teatrda Yevgeni İoneskonun “Kral ölür” pyesi əsasında “Mərasim” tamaşasını səhnələşdirib.

Rejissorun sözlərinə görə, “Mən, sən, o və telefon” tamaşası universal, başa düşülən və tamamilə hər yaşda olan tamaşaçıların hiss edə biləcəyi bir hekayədir.

“Deyə bilərəm ki, darıxdırıcı olmayacaq! Gənc aktyorların çoxunu tamaşaçılar ilk dəfə görəcək, bir çoxları yenidən kəşf olunacaq. Bir sözlə, bu, kəşflər tamaşası olacaq” deyən rejissor daha çox insan hisslərinin səhnə ifadəsini sadə şəkildə verməyə çalışdığını yada salıb.

# Gəncəli kuklaçılar Bakıda

Sentyabrın 20-də Gəncə Dövlət Kukla Teatrının kollektivi Bakıya birgünlük qastrol səfərləri çərçivəsində Abdulla Şaiq adına Azərbaycan Dövlət Kukla Teatrında dahi Üzeyir Hacıbəylinin “O olmasın, bu olsun” operettasını şəhid və qazi övladları üçün nümayiş etdiriblər.

Diasporla İş üzrə Dövlət Komitəsinin təşəbbüsü ilə baş tutan nümayişdən öncə Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olan Vətən oğullarının ruhu bir dəqiqəlik sükutla yad olunub.

Birhissəli uşaq tamaşasının quruluşçu rejissoru Estoniyada yaşayan “Avşar” kukla teatrının rəhbəri, Əməkdar artist Rauf Avşarov, quruluşçu rəssamı Xatirə Avşarova, kuklaçı rəssamı Rəvanə Yaqubovadır. Rolları Səməd Xanəhmədov, Nərmin Şərifova, Elmar Vəliyev, Zülfiyyə Əliyeva, Yeganə Məmmədova ifa edirdilər.

Xatırladaq ki, Gəncə Dövlət Kukla Teatrı bu tamaşa ilə özünün 37-ci mövsümünü açıb.



# “Azad Şuşa” ilə başlayan mövsüm



Ağdam Dövlət Dram Teatrı sentyabrın 21-də yeni mövsümü “Azad Şuşa” əsəri ilə açıb.

Şəhid ailələri və qazilərin də dəvət olunduğu tamaşanın nümayişi Azərbaycan əsgərinin mərdlik və yenilməzliyinin dolğun və mükəmməl ifadəsi ilə yadda qalıb.

Tamaşanın mətn müəllifi Sahib İbrahimli, quruluşçu rejissoru Kərim Həsənov Qarabağ uğrunda gedən ölüm-dirim savaşında qəhrəman oğul və qızlarımızın göstərdiyi rəşadəti səhnə dili ilə yüksək peşəkarlıqla ifadə etməyə nail olublar. Quruluşçu rəssamı Müşfiq Qarayev, musiqi tərtibatçısı Elşən Cəfərovdur.

Vətənpərvərlik ruhlu tamaşada rolları Elmir Hümbətov, Kərim Həsənov, Xəyalə Xudadatova, Fərhad Fərhadzadə və Zöhrab İmamalıyev ifa edirlər.

# Pantomima Teatrı yeni mövsümü açır



Dövlət Pantomima Teatrının kollektivi sentyabrın 24-də “Dejavü” tamaşası ilə 30-cu mövsümə start verəcək.

Artıq neçə illərdir teatrın repertuarında olan və maraqla izlənilən tamaşanın müəllifləri Səbinə Hacıyeva və Bəhruz Əhmədlidir. Onlar həm də səhnə əsərinin quruluşçu rejissoru və rolların ifaçılarıdır. Musiqi tərtibatçısı Əməkdar artist Elman Rəfiyevdir.

Qeyd edək ki, iki aktyorun iştirak etdiyi səhnə əsəri kişi və qadın münasibətlərindən bəhs edir.

# Ömür yaşı 50, səhnə yaşı 30

## Şövqi Hüseynov: “Bir dəfə tamaşanı yarımçıq qoyub çıxmışam. Antraktdan sonra tamaşaçı qarşısına çıxmağa utandım...”



O, istedadı, peşəkarlığı və ən əsası da zəhməti və sevgisi ilə bu gün səhnəmizin ən sevilən aktyorlarındandır. Nəinki çalışdığı səhnədə, ümumən fərqli teatr və rejissorların işləmək istədiyi ifaçılardandır. Çünki durmadan öz üzərində çalışır. Necə deyərlər, öz aləmindədir...

Səhnə yaşı 30-u, ömür yaşı 50-ni haqlayan bu sənətkarın oyunu kimi söz-söhbəti də maraqlı və səmimi idi. Elə isə Gənc Tamaşaçılar Teatrının 50 yaşlı “cavanı”, Əməkdar artist Şövqi Hüseynovla söhbətimizə “tamaşa” edək.

*– Növbəti festivaldan qayıtmısınız. Maşallah, artıq hər yay festivallarla dincəlirsiniz...*

– Məncə, aktyorun ən böyük istirahəti səhnədədir və mən bundan böyük zövq alıram. Festivallara getmək həm də aktyorun format olmasıdır. Biz öz şirəmizdə bişə bilmərik. Mən çox sevinirəm ki, buna dəstək var. Aktyor olaraq nə qədər istəsəm də, maddi baxımdan bunu sistemli təmin edə bilmərəm. Təşəkkür edirəm ki, Mədəniyyət Nazirliyi bütün bu təklif və dəvətlərə dəstək verir. Budəfəki festivalda – Rusiyada təşkil olunan “Ostrovski – FEST” Beynəlxalq Teatr Festivalında F.Dostoyevskinin “Utancaq qız” fantastik povesti əsasında hazırlanan eyniadlı monotamaşa ilə ölkəmizi layiqincə təmsil etməyə çalışdım və diplomla təltif olundum. Bu və ümumən bütün monotamaşalarım mənə uğur gətirib və inanıram ki, bundan sonra da belə olacaq.

*– Mütəmadi festivallara gedirsiniz deyə soruşuram: teatr və tamaşa üzərində “velosiped icadı” bütün başqa ölkələrdəki teatrlara da xarakterikdir, yoxsa biz qalmışıq yolayrıcında?*

– Xeyr, bu, bütün dünyada baş alıb gedən prosesdir. Mən yeni meyillərin hər formasını qəbul edirəm. Təki bütün dediklərimiz insana xidmət eləsin. Səhnədə canlı insan olmalıdır. Bu olmazsa, bizi kreativ ideyalarımız xilas etməyəcək. Tamaşaçı teatra yalnız insana görə gəlir. Söhbət əsl tamaşaçıdan gedir. O tamaşaçı “nə baş verir”ə yox, “necə baş verir”ə baxmağa gəlir. Nə sualına cavab axtaran sirkə gedir. Biz nə qədər çalışsaq da, istənilən tryuk və performansları sirkdən yaxşı edə bilmərik. Amma teatrın üstünlüyü ondadır ki, onda insan var və o, duyğularının dilində danışa bilir. Tamam, yenilik gətirin. Amma özülü dağıtmaq olmaz. İnsanla məşğul olmaq üçün yuxusuz gecələr, savad, enerji və istedad lazımdır. Bu, əzablı bir prosesdir və çox adam dözə bilmir. Amma mümkündür.

*– İndiki teatr, indiki rejissura nə istəyib, nəyi göstərir?*

– Rejissor aktyoru istənilən formada təqdim edə bilər. Amma içi yoxdursa, yalnız siz deyən o əlavə effektlərdən ibarətdirsə, ona bir dəfə baxmaq olar. Amma insana, səhnədə özünü hiss edən və etdirən insana yorulmadan tamaşa edərsən. Baxın, repertuarda elə tamaşalar var ki, uzun illərdir oynanılır. İndi bir fikir də atıblar ortaya: tamaşa köhnəlib. Qətiyyən razı deyiləm. Tamaşa tamaşaçı gətirirsə və izləyici ona hər dəfə maraqla baxırsa, deməli, burada köhnəlikdən söhbət gedə bilməz. Əvəzində bu gün oynanılıb, sabah “köhnələn”lərdən danışsınlar.

*– Yaxşı, o meyarı kim müəyyən edir? Tamaşaçı, yoxsa teatr?*

– Tamaşanın yaşamasını, əlbəttə ki, tamaşaçı təyin edir. Hə, bir də teatrın, tamaşanın taleyini peşəkar teatrşünaslar, sənətinə hörmət edən teatr tənqidçiləri həll etməlidir. Mütləq yazılmalı, deyilməli, analiz olunmalıdır. Müzakirələr aparılmalı, premyeralar ətrafında fikir axını olmalıdır. Hər şey yaxşıdır deyib keçmək olmaz. Ümumən, ən vacib faktor tamaşaçıdır, meyar da elə odur.

*– Onda, gəlin, bir az da bizim tamaşaçıdan danışaq. O necədir və səhnədən necə görünür?*

– Bizim tamaşaçı daha sərtdir və mən ona borcluyam. O, bizi, şəxsən məni rahat olmağa qoymur. Amma rus tamaşaçısı elə deyil. Gözləyir, sənə imkan verir ki, səhnədə nə qədər istəyirsən yaşa, pauza ver. Amma bizim tamaşaçı yox. O, tonu aşağı salmağa qoymur. Bir az temp düşən kimi durub gedir. Beləcə, məni formada saxlayır, tempə kökləyir.

*– Yəni gərginlikdə saxlayır?*

– Mən ona formada saxlayır deyirəm. Beləcə, mən onu itirməkdən qorxuram. Hər oyunda bizim tamaşaçı ilə “müharibə”yə çıxıram. Ya o mənə qalib gələcək, ya da mən ona. Bəzən qalib gəlirik, bəzən də məğlubiyyətlə razılaşırıq. Canlı sənətlə məşğuluq. Bəzi tamaşalardan sonra adam istəyir ki, ərizəsini yazıb çıxıb getsin. Məndə belə hallar dəfələrlə olub. Hətta bir dəfə Kamera Teatrında tamaşanı yarımçıq qoyub çıxmışam. Birinci hissəni oynadım. Antraktdan sonra tamaşaçı qarşısına çıxmağa utandım. Tamaşaçı mənə qalib gəlmişdi.

*– Bəzi rejissorlarımız, aktyor həmkarlarınız da “hər tamaşa hər tamaşaçı üçün deyil” deyirlər. Razısınız?*

– Xeyr, əsla. Biz bilet satanda tamaşaçının diplomuna baxıb, intellektual səviyyəsini yoxlayıb, zövqünü ölçmürük ki. İstənilən tamaşaçı istənilən tamaşaya baxmaq hüququna malikdir və mənim də vəzifəm onun qarşısına çıxıb öz sənətimi göstərib özümü ifadə etməkdir. Tamaşaçı mənə baxmırsa, zaldan gedirsə, ümumən teatra gəlmirsə, bunun günahkarı aktyordur.

### “Rejissor barmağı tamaşada görünməməlidir”

*– Bəs uğurlu-uğursuz tamaşa bölgüsündə əsas pay kimə düşür?*

– Aktyor əvvəl gəlir, sonra, təbii ki, rejissor və teatr. Çünki səhnədə tamaşaçı qarşısına çıxan aktyordur. Düzdür, rejissor onu yönəldir. Amma ilk ünsiyyət aktyorla başlayır. Ümumiyyətlə, rejissor barmağı tamaşada görünməməlidir. Görünürsə, deməli tamaşa yaxşı alınmayıb. Rejissor tamaşaçıdan əvvəl görür prosesi. Aydındır, rejissor aparıcı qüvvədir və aktyor onun fikrini daşımalıdır. Amma vicdanla. Tamaşa uğurlu olanda aktyorlar deyirlər bizim işimizdir, pis olanda rejissorun üzərinə atırlar. Əslində, ikisi də realdır. İkibaşlıdır. Hər iki tərəf məsuliyyət daşıyır. Yaxşıdırsa da, pisdirsə də, bizim işimiz, bizim məhsulumuzdur – hamımızın. Niyə ayırmalıyıq? Bilirsiz, son nəticədə uğursuzluqların bir səbəbi çıxır – rejissor aktyoruna etibar eləmir, yaxud əksinə.

*– Bəlkə aktyor o deyil?*

– O deyilsə, niyə rol verir? Fikrimcə, rejissor aktyoruna tam etibar eləməlidir. Əgər aktyor mənə etibar eləmirsə, gücümə inanmırsa, onunla nə işim ola bilər? Yaxud o işin keyfiyyətinə kim zəmanət verə bilər? İllər əvvəl bir televiziya filminə çəkilirdim. Rejissor kamera arxasında oturub heç mənim fərqimə belə varmadan “Yox, o deyil” deyib dururdu. İnanın, heç məni görüb energetikamı hiss belə etmirdi. Mən də cavanam da. Daha çox tər tökür, daha yaxşısını eləməyə çalışıram. Görürəm yox e, heç bunun vecinə də deyil. Nəticədə çəkilişi yarımçıq qoyub getdim. Rejissor aktyora baxanda, onu görəndə nə isə alına bilər. Bir də qarşılıqlı inam və mübadilə vacibdir. Onda nə isə əmələ gəlir. Xəstə həkiminə, tələbə müəlliminə inanan kimi. Rejissor imkan verməlidir ki, aktyor özü tapsın, özü manevr etsin. Yenə məni keçmişə apardınız... Mərhum rejissorlarımızdan birinin məşqi idi. Mən qarışıq hamımızı robot kimi qəlibə salıb, az qala hansı sözdən sonra göz qırpacağımıza da qərar verməyə çalışırdı. Axır necə boğaza yığıldımsa, fəryad elədim, “Evim yox, maaşım yox, şan-şöhrətim yox, bircə sənətim var. Heç olmasa, icazə ver, ondan zövq alım, özümü tapım, sevincimi yaşayım” deyib səhnədən düşdüm. Çətin də olsa, razılaşdı və nəticədə yaxşı iş alındı.

*– Amma əksər rejissorlar deyir ki, aktyor birmənalı icraçıdır.*

– Xeyr, düz yanaşma deyil. Aktyor marionet yox, yaradıcı insandır.

*– Hər aktyor?*

– Hər bir aktyora elə yanaşmaq lazımdır. Sən kim olursan ol, bu an hansı aktyorla işləyirsənsə, “O, dünyanın ən gözəl aktyorudur ki, mən onunla işləyirəm” düşüncəsini özün üçün təlqin etməlisən. Yoxsa “o pisdir”, “əlimizdəki variant budur”, “bunlardan alınmayacaq” deyirsə, sözsüz ki, alınmayacaq. Düzdür, bəzi aktyor da bu nəticəni özü hasil edir. Təsəvvür edin, Xalq artistidir, rejissora “Bu sözü gülərək deyim, burada əlimi belimə qoyub danışım” kimi gülməli suallar verir. Belə tamaşa hazırlamaq olar? Yaxud deyir filan rejissor pisdir. Soruşanda niyə, deyir mənə mizan vermir. Amma unudur ki, yaxşı rejissor heç vaxt mizan vermir. Metaforik mizan verə bilər, amma “Fatı dur, Fatı otur” yox.

> “Tamaşaçı “nə baş verir”ə yox, “necə baş verir”ə baxmağa gəlir. Nə sualına cavab axtaran sirkə gedir. Biz nə qədər çalışsaq da, istənilən performansları sirkdən yaxşı edə bilmərik. Amma teatrın üstünlüyü ondadır ki, səhnədə insan var və o, duyğularının dilində danışa bilir”

*– Bu lap “Yaxşı aktyora heç rejissor lazım deyil” oldu ki...*

– Elə niyə? Məhz yaxşı aktyora rejissor lazımdır. Təbii ki, yaxşı rejissor. Nə qədər güclü, böyük aktyor olsan da, mütləq sənə rejissor lazımdır. Kənar göz. Amma mütləq aktyoru hərəkətə gətirməlidir, imkanlarını üzə çıxarmağa vadar eləməlidir. Alınmırsa, bayaq dediyim düz variantını, seçdiyi formasını ortaya qoymalıdır. Yenə deyirəm, yaxşı rejissor mizan vermir; iç verir, hal verir, səni düz istiqamətdə düşünməyə yönəldir.

*– Rejissorları seçmək imkanınız olsaydı...*

– Təəssüf ki, yoxdur. Bizim valideyn seçmək hüququmuz olmadığı kimi, rejissor seçimi lüksümüz də yoxdur. Amma mənim imkanım var ki, “O mənim rolum deyil, onu oynamağa yaşım imkan vermir” deyə bilim. Bəli, artıq bunu deyə bilən yaşdayam, əməldəyəm.

### “İstədiyim rolları oynayıb, gücümün çatdığı işləri görmüşəm”

*– Lap rejissordan zülm görən, əziyyət çəkən aktyor kimi danışırsınız...*

– (gülür). Hesab edirəm ki, əksinə, mən bəxti gətirən aktyoram. İstədiyim rolları oynayıb, arzuladığım, gücümün çatdığı işləri görmüşəm. Bəxtim həm də ona görə gətirib ki, Xalq artisti Cənnət Səlimova kimi yaxşı ustadım olub. Bilirsiniz, əslində, aktyor yox, yaxşı rejissor aktyorunun rol pilləsini düşünməlidir.

*– Bəlkə bu, həm də ona görədir ki, siz daim öz üzərinizdə çalışırsınız?*

– Başqa cür ola da bilməz. Aktyor rejissordan narazıdırsa, onun oyununu qəbul etmirsə, nə məcburdur, işləməsin onunla. Rejissor aktyora rol vermirsə, birmənalı günahkar aktyordur. Mən yaradıcılıqdan danışıram. Şəxsi münasibət, dostluq, qrupbazlıqdan yox. Elə şeyləri mən də çox görmüşəm. Amma yenə də təslim olmamışam. Onda da, indi də oynamaq, sadəcə, səhnədə işimi görmək istəyirəm. Rol vermirlər, dayanmıram. Monotamaşalar hazırlayıram, fərqli janrlarda nümayişlər təqdim edirəm. Amma söhbət yaradıcı insandan, normal rejissordan, yaradıcılıqdan gedirsə və rejissor bu vəziyyətdə mənə rol vermirsə, təqsir yenə məndədir. İstər rejissor, istər aktyor özünün, tamaşaçısının düşməni deyil axı. Yaxşı rejissor istəyər ki, tamaşasında yaxşı aktyor oynasın, elə aktyor da...

*– Lap rejissor kimi danışırsınız. Nə əcəb quruluşa cəhd göstərmirsiz. Axı bu tendensiya da geniş yayılıb.*

– Yox, istəmirəm. Bir dəfə əsəbiləşib qurmuşdum, daha təkrarlamadım (gülür). Çünki mən aktyoram, aktyor kimi də qalmaq istəyirəm.

*– Səhv etmirəmsə, A.Çexovun sözüdür. Deyir “Rol pencəkdir, aktyor onu istənilən vaxt geyinib-soyuna bilməlidir”. Bizdə isə hələ də ampluada ilişib qalanlar var...*

– Hə, bax bunun günahı məhz rejissordadır. Mən istəmirəm rejissor mənim boyuma biçilən, başqa tamaşadakına oxşar rolumu versin. Əksinə, bu dəfə məni daha çətin sınağa salıb, daha çox işlətsin, başqa bir hala salsın.

*– Bəzi rollar da olur ki, “bu mən deyiləm, bu mənim işim deyil” dedirdir?*

– Olur. Amma deyim ki, mən deyiləm deyə-deyə gördüyüm işdən aldığım zövqün ölçüsü yoxdur. İndi deyəcəksiniz ki, özünüzə əziyyət verməyi xoşlayırsız. Bəli, çünki sənət, aktyorluq budur. Biz xərclədikcə böyüyəcək, seviləcəyik.

*– Sizin Məşədi İbad roluna girişməyiniz də əziyyətsevərliyinizdən xəbər verirdi. Beyinlərdə dərin iz salmış obraz və Şövqi Hüseynov...*

– Bəli, böyük məsuliyyət idi və çox çətin qərar verdim. Çünki o personaja tam başqa cür baxdım və stereotipi qırmaq elə də asan olmadı. Birinci “proqon”da soyuq tər tökdüm. Əslində, hamımız bərbad halda idik. Səhərədək evə getmədim. Öz-özümə saatlarla məşq etdim və sonda personajı gördüm. Ondan sonra öz-özümə “Şövqi, daha sənə zaval yoxdu” dedim. Səhər çıxıb şəhəri dolaşdım, saçlarımı dibindən kəsdirdim və teatra qayıtdım. Hamı məəttəl qaldı. Beləcə, parikdən də, qaşlardan da, xaldan da, butafor qarından da imtina etdim. Ardınca özümün anladığım və sevdiyim Məşədi İbadı göstərdim. Düşünürəm ki, sevdirməyə də nail oldum. Təbii ki, bu işdə Cənnət Səlimova və Musiqili Teatrın truppasının böyük əməyi vardı.

*– Bir də filan rejissorun aktyoru faktoru var. Məsələn, Cənnət Səlimovanın aktyoru.*

– Normaldır, ustadımdır və sevimli rejissorumdur. O, tələbə vaxtımdan mənim vizit kartımdır.

*– Ötən mövsümdə sizi üç ayrı teatrın tamaşalarında gördük. Fərqli üslub və yanaşması olan rejissorlarla işləyirsiz. Yəqin bu da sizə güvən verir.*

– Təbii ki, hamısından da zövq almışam, özümü hər dəfə başqa aktyor keyfiyyətlərimə görə göstərməyə nail olmuşam. Amma buna qədər axı əziyyət çəkmişəm. Sözün bütün mənalarında, sıfırdan başlamışam və yalnız başımı aşağı salıb sənətimlə, işimlə məşğul olmuşam.

*– 50 yaşlı Şövqi Hüseynov sənətdə daha çox nəyi gördü: sevgini, şöhrəti, yoxsa əzab-əziyyəti?*

– Sadaladıqlarınızın hamısını. Özü də hər biri əziyyətdən, məhrumiyyətdən keçdi və hazırda olduğum mövqedən çox razıyam. Aktyora nə lazımdır? Təbii ki, yaradıcılıq şəraiti – səhnə, rol, özünü ifadə imkanı. Bu mənada şəxsən məni xoşbəxt eləmək çox asandır. Roluma dəyməyin, səhnəmi əlimdən almayın, vəssalam. Hə, bir də aktyor, yaradıcı insan diqqəti, dəstəyi sevir. Sözsüz ki, onun əsas meyarı tamaşaçı münasibəti və sevgisidir. Şükür Allaha, bu barədə də məmnunam. Yaradıcılıq üçün şərait və imkanlar var. Qalır işləmək. Mən də öz işimi sevə-sevə icra edirəm. Təbii ki, nəticəsini düşünmədən. Çünki biz sənətə gələrkən heç bir qarşılıq düşünməmişik. Nəzərə alın ki, həmin dövr də ağır idi. Amma heç vaxt peşman olmadım, bezmədim, ruhdan düşmədim. O demək deyil ki, mənə asan oldu. İki ilə yaxın teatrda yaşadım. Ev, şərait yox idi. Amma buna rəğmən xoşbəxt idim. Amma təəssüf ki, indiki gənclikdə o yoxdur.

*– Gəlin, söhbətimizə başlayan yeni mövsüm və yeni planlarla nöqtə qoyaq.*

– Sevinirəm ki, fasilədən sonra təzəcə əsaslı təmirdən çıxan doğma səhnəmizə qayıtdıq. Sonuncu premyeramız “Qağayı”nı, nəhayət, öz səhnəmizdə oynayacağıq. Bundan başqa, teatrda Mehriban Ələkbərzadə və Nicat Kazımovun quruluşlarında iki fərqli tamaşanın məşqləri gedir və orada da rollarım var. Akademik Musiqili Teatrda isə “Kimyagər” yeni quruluşda hazırlanır, orada da rolum var. M.Ələkbərzadə ilə monotamaşa üzərində də çalışırıq. Pedaqoji fəaliyyətimi də davam etdirirəm.

**Söhbətləşdi:
Həmidə Nizamiqızı**

# İstedadlı teatr rejissoru və təşkilatçısı

Bu il tanınmış teatr təşkilatçısı və rejissor, sənətə ülvi tellərlə bağlanan Əməkdar incəsənət xadimi Məbud İsmayılzadənin anadan olmasının 95 illiyidir.

Məbud İbrahim oğlu İsmayılzadə 24 mart 1927-ci ildə Zərdab rayonunda dünyaya göz açıb. Erkən çağlardan teatra maraq göstərir. Əmək fəaliyyətinə 1942-ci ildə, on beş yaşında ikən Zərdab teatrında başlayır. Məbud İsmayılzadə 1946-cı ildə Azərbaycan Dövlət Teatr İnstitutunun Rejissorluq fakültəsinə qəbul olunur. 1951-ci ildə institutu başa vurur və elə həmin il Respublika Xalq Yaradıcılığı Evinin direktoru təyin olunur. 24 yaşlı gənc mədəniyyətin aparıcı sahələrindən biri olan bu təşkilata 20 il rəhbərlik edir. O, bu müddət ərzində "Çinar", "Şur" kimi məşhur kollektivlərin, 30-dan çox xalq teatrının yaranması, respublika miqyaslı bayram, şənlik, festival və müsabiqələrin keçirilməsinin əsas təşkilatçılarından olur.



Araşdırmalarda Məbud İsmayılzadənin təşkilatçılıq sahəsində xüsusi istedad sahibi olduğu bildirilir. 1954-cü ildə minlərlə həvəskar ifaçının iştirak etdiyi ilk teatrlaşdırılmış xalq yaradıcılığı bayramının, 1955-ci ildə Respublika bədii özfəaliyyət baxışının, 1961-ci ildə III Aşıqlar Qurultayının təşkilatçısı, 1959-cu ildə Moskvada keçirilən "Azərbaycan mədəniyyəti ongünlüyü" çərçivəsində xalq yaradıcılığı bölməsinin quruluşçu rejissoru olub. Bu tədbirlər o zaman özünün rəngarəngliyinə və rejissor yozumuna görə tamaşaçılar tərəfindən maraqla qarşılanıb. Amma bədxahlar ona işini davam etdirməyə imkan vermirlər. O öz ərizəsi ilə işdən çıxır. 1972-ci ildə Mədəniyyət Nazirliyinin Abidələrin və muzeylərin qorunması idarəsinin rəis müavini təyin edilir. Bir il sonra Lənkəran Dövlət Dram Teatrı açılır. M.İsmayılzadə teatra rəhbər göndərilir.

Bununla da onun həyatının ikinci və daha maraqlı dövrü başlayır. Yeni yaradılan teatrın qayğıları həddindən artıq olur. İlk olaraq teatr üçün ayrılan mədəniyyət evinin binasını peşəkar teatr məkanına uyğunlaşdırmaq lazım gəlir. Ali məktəbi bitirən bir qrup gənc mütəxəssisin Lənkəran teatrına işləməyə gəlməsi sevindirici, həm də böyük məsuliyyət yaradırdı. Onların mənzillə təmin olunması, sosial problemlərinin həlli onun diqqət mərkəzində olur. Bütün bu çətinliklər o zaman M.İsmayılzadənin və o dövrdə mədəniyyət naziri olan Zakir Bağırovun köməkliyi sayəsində öz həllini tapır.

M.İsmayılzadənin Lənkəran Dövlət Dram Teatrına rəhbərliyi dövründə kollektiv bir çox uğurlara imza atır, respublikanın qabaqcıl teatrlarından birinə çevrilir.

Əməyi yüksək qiymətləndirilən M.İsmayılzadə 1979-cu ildə "Əməkdar incəsənət xadimi" fəxri adına layiq görülür. Daha sonra sənətkar bir neçə çağırış Lənkəran Şəhər Xalq Deputatları Sovetinin deputatı seçilir. Mədəniyyət sahəsində göstərdiyi xidmətlərə görə Azərbaycan SSR Ali Sovetinin fəxri fərmanları ilə təltif edilir.

Uğurlu fəaliyyət yolu keçən sənətkar bir müddət sonra Bakıya dönür. Azərbaycan Konsert Birliyinin bədii rəhbəri təyin olunur. Bir-birindən maraqlı teatrlaşdırılmış konsert-tamaşalar hazırlayır. Bu konsertlər haqqında dövri mətbuat səhifələrində maraqlı informasiyalar dərc edilir. Azərbaycan Televiziyasında rəngarəng verilişlər hazırlanaraq ictimaiyyətə təqdim olunur. O, eyni zamanda gənc istedadların üzə çıxarılmasına və tanınmasına böyük əmək sərf edir.

M.İsmayılzadə ömrünün ahıl çağında da rejissor fəaliyyətini davam etdirib. Böyük türk ədibi Nazim Hikmətin 100 illik yubileyi (2002) ərəfəsində Şuşa Dövlət Musiqili Dram Teatrında dramaturqun "Bayramın birinci günü" tamaşasına quruluş verib.

Sənətlə nəfəs alan Məbud İsmayılzadə 17 sentyabr 2004-cü ildə vəfat edib.

**Savalan Fərəcov**

# İslam mədəniyyətində birgəyaşayış təcrübəsi

## Bakıda beynəlxalq simpozium keçirilib

20-21 sentyabr tarixlərində Bakıda Azərbaycan İlahiyyat İnstitutu (AİI), Mənəvi Dəyərlərin Təbliği Fondu (MDTF), Kırıkkale Universitetinin İslam elmləri fakültəsi və İslam Ölkələri Tədqiqat Mərkəzinin birgə təşkilatçılığı ilə "İslam mədəniyyətində birgəyaşayış təcrübəsi" mövzusunda beynəlxalq simpozium keçirilib.

Tədbirin açılışında torpaqlarımızın qorunması uğrunda şəhid olanların ruhuna hörmət əlaməti olaraq Quran tilavət edilib.

Tədbirdə çıxış edən AİI-nin rektoru, dosent Aqil Şirinov müasir dünyada birgəyaşayış çərçivəsində ortaya çıxan böyük problemlərin əsas amillərindən birinin milli, irqi və dini müstəvidə artan ayrı-seçkilik olduğunu bildirib. Qeyd edib ki, etiqad və məzhəb zəminində baş verən ayrı-seçkilik və münaqişələr elm və irfandan uzaq olan bəzi dini qrupları müsəlman dünyasına yönəldilmiş planların könüllü iştirakçılarına çevirir: "Bütün bunlar bizi İslam Şərqində və mədəniyyətində birgəyaşayış ənənəsini, tarixi təcrübələri, Həzrət Məhəmmədin həyat fəlsəfəsinə bağlı prinsipləri yenidən gözdən keçirib təhlil etməyə, İslam mədəniyyətinin şifrələrini və bu mədəniyyətin müqəddəs mətnlərini doğru oxumağa sövq edir".

Mənəvi Dəyərlərin Təbliği Fondunun icraçı direktoru, ilahiyyat üzrə fəlsəfə doktoru Mehman İsmayılov İslamın əsas qaynaqlarından nümunələr gətirərək birgəyaşayış məsələsinə toxunub. Bildirib ki, sonrakı dövrlərdə, xüsusən də son bir neçə əsrdə Qərb mədəniyyətinin hakim mədəniyyətə çevrilməsi, İslam mədəniyyətinin bu böyük ənənə və təcrübəsinə kölgə salıb, dinimiz ekstremizm, radikalizm və s. qavramlarla birgə anılmağa başlanıb. "İslam mədəniyyətinin bir parçası olan Azərbaycan da keçmişdən bu günə çox zəngin birgəyaşayış ənənələrinə sahibdir. Etnik, mədəni, dini, məzhəb və s. cəhətdən müxtəlifliyin olduğu ölkəmizdəki birgəyaşayış mühiti bəşəriyyətin birgəyaşayışına öz töhfəsini verir. Bu mühit, sadəcə, qanunlara deyil, həm də kökləri dərində olan böyük mirasa söykənir", - deyə o qeyd edib.

Kırıkkale Universiteti İslam elmləri fakültəsinin dekanı, professor Mevlüt Erten qeyd edib ki, İslam mədəni mühitinin birgəyaşayışla bağlı bir çox dəyərə və zəngin tarixi təcrübələrə sahib olduğunun şahidləriyik. O, qloballaşma dövründə ksenofobiyanın mədəniyyətlər və dinlər arasında dialoqun inkişafına ciddi təhdid olduğunu vurğulayaraq bildirib ki, bu meyil dünyada sülhün və sabitliyin pozulmasında maraqlı olan radikal, terrorçu qüvvələr tərəfindən dəstəklənir. Bu təhdidin qarşısını almaq üçün tolerantlığın, dialoqun, əməkdaşlığın və həmrəyliyin gücləndirilməsi böyük əhəmiyyət daşıyır. Bu baxımdan, Azərbaycanın rolu xüsusi vurğulanmalıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri, fəlsəfə elmləri doktoru Mübariz Qurbanlı Azərbaycanda birgəyaşayış ənənəsi, milli-mənəvi miras və dövlət siyasəti barədə danışıb. O bildirib ki, din insanların mənən zənginləşməsində geniş təsir imkanlarına malikdir: "Dinin insanların həyatındakı rolunu danmaq, funksiyalarından düzgün faydalanmamaq, habelə ondan sui-istifadə hallarına yol vermək dövlət və cəmiyyət qarşısında yeni problemlər və təhlükələr yarada bilər.




İslam Azərbaycan xalqının milli-mənəvi dəyərlərindən biri, onun tarixinin ayrılmaz hissəsidir. Ümummilli lider Heydər Əliyev tərəfindən böyük peşəkarlıq və həssaslıqla hazırlanan, milli-mənəvi dəyərlərə qayıdışın əsasını qoyan, xalqın keçmişinə, milli adət-ənənələrinə, dininə dövlət səviyyəsində qayğı göstərən, ölkədə dini etiqad, inanc azadlığını tam təmin edən dövlət-din münasibətləri modeli Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Birinci vitse-prezident Mehriban Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun həm ölkə daxili, həm də ölkə xaricindəki dini abidələrin, ibadət evlərinin təmir və bərpa olunmasında, dini-mədəni irsimizin qorunub saxlanması, milli-mənəvi dəyərlərimizin dünyada tanıdılması, habelə dini abidələrin bərpasına qayğı göstərilməsində əvəzsiz xidmətləri var.

Qafqaz Müsəlmanları İdarəsi sədrinin müavini, fəlsəfə üzrə fəlsəfə doktoru Fuad Nurullayev qeyd edib ki, dinimiz təkcə müsəlmanlara qayğı göstərməyi buyurmur: "Dinimiz dinindən asılı olmayaraq ehtiyacı olan bütün şəxslərə yardım etməyi əmr edir. Birgəyaşayış, dinlərarası qardaşlıq, dostluq məhz bu əməllər üzərində qurulur, formalaşır. "Əl-Bəqərə" surəsində qeyd edilir ki, dində məcburiyyət yoxdur. Yəni, ayinləri kiməsə məcburi surətdə qəbul etdirmək olmaz. İslamda, həmçinin digər dinlərə mənsub şəxslərin ibadət yerlərinə hörmətlə yanaşmaq buyurulur. Belə dəyərlər, təkcə insanlar arasında deyil, eyni zamanda dövlətlərarası münasibətlərin tənzimlənməsində böyük rol oynayır".

Milli Məclisin deputatı, ilahiyyat üzrə fəlsəfə doktoru Ceyhun Məmmədov qeyd edib ki, birgəyaşayış sağlam ictimai münasibətlər mühitinin formalaşması, fərdi və sosial planda təhlükəsizliyin təmin olunması üçün əvəzedilməz dəyərdir. Təsadüfi deyil ki, birgəyaşayış demokratik və multikultural cəmiyyətimizin əsas dəyərlərindən biri kimi, ölkəmiz üçün də əhəmiyyəti gedərək artan məsələlərdəndir.

Simpoziumda daha sonra İzmir Katip Çelebi Universitetinin rektoru Saffet Köse, "Nur-Mübarək" Misir İslam Mədəniyyəti Universitetinin rektoru Məhəmməd əl-Şəhhat əl-Cindi, Müsəlman İnstitutunun sədri Sahibzada Sultan Ahmed Ali, Bolqar İslam Akademiyası rektorunun köməkçisi Rustem Gilmutdinov, Bakı Dağ Yəhudiləri Dini İcmasının sədri Milix Yevdayev və Bakı Beynəlxalq Multikulturalizm Mərkəzinin aparıcı məsləhətçisi Araz Qurbanov çıxış ediblər.

***

Simpoziumun ikinci günü panel iclaslarla davam edib. Bağlanış mərasimində AİI-nin rektoru Aqil Şirinov tədbirdə iştirak edən elm adamlarına təşəkkürünü bildirib. Qeyd edib ki, simpoziumda dinlənilən və birgəyaşayış ənənəsinin müxtəlif aspektlərini özündə ehtiva edən mövzularda məruzələr kitab şəklində çap olunacaq.

Vurğulayıb ki, məruzələrdən də məlum olduğu kimi, İslam dünyasında tarixən birgəyaşayış mövcud olub. Bu ənənənin ən gözəl nümunəsi ölkəmizdədir. Azərbaycanda müxtəlif dinlərin, konfessiyaların, fərqli məzhəblərin nümayəndələri birlikdə yaşayır.

Kırıkkale Universiteti İslam Ölkələri Tədqiqat Mərkəzinin müdiri, professor Zekeriya Akman simpoziumda müxtəlif dinlərin və məzhəblərin nümayəndələrinin iştirakını diqqətə çatdıraraq qeyd edib ki, bu nümunədə Azərbaycanda olan birgəyaşayış ənənəsinin şahidi olduq.

Simpoziumun sonunda qonaqlara hədiyyələr təqdim olunub.

Xatırladaq ki, iki gün davam etmiş beynəlxalq simpoziumda 100-dən çox məruzəçinin çıxışları 10 paneldə dinlənilib.





# "Şuşanın abidələri"

## VI yazı

"Şuşanın abidələri" rubrikasında mədəniyyət paytaxtımızın tarixi-mədəni tikililəri haqqında söz açmağa davam edirik.

### Qara Böyükxanım qəsri

Şuşa şəhərinin mərkəzində yerləşən tarixi tikililərdən biri Qara Böyükxanım qəsri və ya Qara Böyükxanım bürcüdür. Qarabağ xanlığı tarixinin ilk araşdırıcılarından olan Mirzə Adıgözəl bəyin məlumatına görə, Pənahəli xanın hakimiyyəti dövründə Şuşada xan ailəsinin üzvləri üçün geniş binalar və hündür saraylar inşa edilmişdi. Şuşa qalasında tikilmiş qəsrlərdən yalnız ikisi dövrümüzə çatıb ki, onlardan biri qalanın cənub-şərq tərəfində yerləşən Qara Böyükxanım qəsri, digəri isə dərin yarğan yanındakı qaya kənarında ucalan Pənahəli xanın qəsridir. Qara Böyükxanım qəsrinin giriş qapısı üzərindəki kitabədə onun hicri 1182-ci ildə (1768) inşa edilməsi göstərilib.

Şuşa qalasındakı qəsrlərin özünəməxsus memarlıq xüsusiyyətləri qədim dövrlərdən səyyahlar və şəhərin qonaqlarının diqqətini cəlb edib. Məsələn, XIX əsrin ortalarında "Qafqaz" qəzeti yazırdı: "Şəhərdəki müxtəlif evlər və yaşayış binaları arasında xan ailəsi üzvlərinin yaşadığı qəsrlər o dəqiqə diqqət çəkir. Onlar özünəməxsus xarakterə malikdirlər. Onları künclərində dairəvi qüllələr olan hündür divarlar əhatə edir".

Şuşa qəsrlərinin həcm-məkan və plan formalaşmasının həllinə Ağdamdakı Şahbulaq qalasının memarlıq xüsusiyyətləri təsir göstərib. Şahbulaq qəsrində olduğu kimi, bu qəsrlərin də girişləri şimal istiqamətində yerləşir. Birbaşa girişdən müdafiə olunmaq üçün qapının qarşısında keçidə malik prizmavarı örtüklə tamamlanan qüllə ucaldılıb.

Saray kompleksinə daxil olan birmərtəbəli yaşayış və xidməti tikililər binanın daxili perimetri boyunca yerləşdirilib. Onların damında 1.5 metr hündürlükdə qəsrin divarlarında mazğallar yerləşdirilib. Bununla da yaşayış binalarının damı müdafiə meydançalarına çevrilib.

Şimal istiqamətində yerləşdirilmiş əsas giriş qapısı İbrahimxəlil xan sarayında olduğu kimi həll edilsə də, burada qabağa çıxan prizma şəkilli həcm ikimərtəbəlidir. Onun ikinci mərtəbəsi həyətin yanlarında yerləşən daş pilləkənə aparır. Otaqların divarları və tağvarı tavanları divar rəsmləri ilə bəzədilib.

Qara Böyükxanım qəsr kompleksini əhatə edən qala divarlarının yuxarı qalxdıqca daralan qüllələri ikiyarusludur. Qüllələr günbəzvarı örtüyə malikdir. Saray binasının həm tavan, həm də divar hörgüsü yaxşı yonulub.

Qara Böyükxanım qəsri ölkə əhəmiyyətli memarlıq abidəsi kimi Mədəniyyət Nazirliyi tərəfindən qeydiyyata alınıb.

### Firidun bəy Köçərlinin evi

Azərbaycanın görkəmli maarif xadimi, pedaqoq, ədəbiyyatşünas, publisist Firidun bəy Köçərlinin (1863-1920) evi XIX əsrdə Köçərli məhəlləsində yaşıllıq içərisində tikilib. Şəhərin nisbətən yuxarı hissəsində yerləşən bu bina da yerli memarlıq üslubuna uyğun olaraq inşa edilib. Birmərtəbəli tikili bir neçə otaqdan ibarətdir. Binanın fasadında Şuşaya xas olan "tikişdoldurma üslubu" saxlanılıb.

Ölkə əhəmiyyətli memarlıq abidəsi kimi Mədəniyyət Nazirliyi tərəfindən qeydiyyata alınan F.Köçərlinin evi Şuşa şəhərinin işğalından sonra erməni vandalları tərəfindən dağıdılıb. Şəhər azad edildikdən sonra binanın xarabalıqları aşkar edilib.

### Yuxarı Gövhər ağa məscidinin mədrəsəsi

Yuxarı Gövhər ağa məscidi 1883–1884-cü illərdə İbrahimxəlil xanın qızı Gövhər ağanın tapşırığı ilə memar Kərbəlayı Səfixan Sultanhüseyn oğlu Qarabaği tərəfindən inşa edilib. İndiki məscidin yerində hələ Şuşa şəhərinin əsasını qoymuş Pənahəli xanın dövründə qarğı və qamışdan inşa edilmiş məscid olub. Pənahəli xanın tikdirdiyi bu məscid 1768-ci ildə İbrahimxəlil xan tərəfindən daşla yenidən inşa edilib. Daha sonra bu məscidin yerində müasir dövrümüzə qədər gəlib çatmış Yuxarı Gövhər ağa məscidi kimi tanınan həmin bina inşa olunub.





XIX əsrin sonlarında Yuxarı Gövhər ağa məscidində aparılan yenidənqurma işləri zamanı məscidin ön tərəfində ikimərtəbəli mədrəsə inşa edilib. Yerli daşdan tikilən mədrəsənin ikinci mərtəbəsində taxtadan eyvanlar quraşdırılıb və dərs otaqları kimi istifadə edilib. XX əsrin birinci yarısında dini məbədlərin fəaliyyətinə qadağalar qoyulduğu zaman mədrəsənin şimal və şərq hissəsi tamamilə sökülüb. Mühafizə olunan qərb tərəfi isə XX əsrin ikinci yarısında bərpa edilib.

Yuxarı Gövhər ağa məscidinin mədrəsəsi ölkə əhəmiyyətli abidə kimi dövlət qeydiyyatına alınıb.

### Xanlıq Muxtar karvansarası

Şuşa şəhəri yarandığı gündən yerli və xarici tacirlərin tez-tez üz tutduqları məkan olub. Şuşaya gələn tacirlərə bəzən bir gün bəs etmirdi. Ona görə də onlar Şuşada gecələməli olurdular. Bunun üçün şəhərdə karvansaralar fəaliyyət göstərirdi. Azərbaycanın digər şəhərlərində olduğu kimi, Şuşada da karvansaralar ikimərtəbəli olmaqla vahid üslubda inşa edilirdi. Birinci mərtəbənin həyətə baxan bir hissəsindən tacirlərin yük heyvanlarını saxlaması üçün tövlə kimi istifadə edilir, küçəyə baxan hissəsində isə dükan və emalatxanalar yerləşirdi. Karvansaraların ikinci mərtəbəsindəki otaqlar, adətən, tacirlərin istirahəti və onların mallarının saxlanılması üçün nəzərdə tutulurdu. Bu baxımdan XVIII əsrdə Xanlıq Muxtar tərəfindən Şuşa şəhərinin indiki M.F.Axundzadə küçəsində tikilmiş eyniadlı karvansara xüsusilə seçilirdi.

Xanlıq Muxtarın kimliyi barədə mənbələrdə ətraflı məlumat olmasa da, karvansaranın "Rasta" bazarının başında, şəhərin mərkəzində inşa edilməsindən bəlli olur ki, o, şəhərin tanınmış şəxslərindən imiş. Onun xan sarayında xidmət etməsi barədə də məlumatlar var.

Xanlıq Muxtar karvansarası birmərtəbəli inşa edilib, əsas küçələrə açılan pəncərə və qapıları iri ölçüdə həll olunub. Ticarət yeri kimi istifadə edilən binanın daxili otaqları anbar və yaşayış üçün nəzərdə tutulub.

Karvansara ölkə əhəmiyyətli tarix-mədəniyyət abidəsi kimi qeydiyyata alınıb. Şuşa şəhəri 1992-ci ildə ermənilər tərəfindən işğal edildikdən sonra karvansaradakı İslam elementləri və ərəb dilindəki yazılar erməni xaçı və yazısı ilə əvəzlənib.

**Hazırladı:**
**Nurəddin Məmmədli**

# Milli Kitabxananın musiqi irsimizə töhfəsi

## Azərbaycan bəstəkarlarının not məcmuələri təqdim olunub

Sentyabrın 21-də Milli Kitabxanada Üzeyir Hacıbəyli XIV Beynəlxalq Musiqi Festivalı çərçivəsində Mədəniyyət Nazirliyi və Milli Kitabxananın birgə layihəsi üzrə nəşr olunmuş Azərbaycan bəstəkarlarının not məcmuələrinin təqdimat mərasimi keçirilib.



Kitabxananın direktoru Kərim Tahirov ümumilikdə 21 not məcmuəsinin təqdim olunduğunu və bu nəşrlərin uşaq musiqi məktəblərinin şagirdləri, ali musiqi məktəblərinin tələbələri, musiqişünas alimlər üçün nəzərdə tutulduğunu qeyd edib. O, kitabxananın həyata keçirdiyi musiqi layihələrindən danışıb, Beynəlxalq Petruççi Musiqi Kitabxanası ilə olan əməkdaşlıq haqqında məlumat verib, Azərbaycanın görkəmli bəstəkarlarının əsərlərinin notlarının və səs yazılarının Petruççi Musiqi Kitabxanasının saytında yerləşdirildiyini diqqətə çatdırıb.

Azərbaycan Milli Konservatoriyasının rektoru, professor, Xalq artisti Siyavuş Kərimi təqdimatı keçirilən nəşrlərin əhəmiyyətindən bəhs edib, Milli Kitabxananın bu yöndə fəaliyyətini yüksək qiymətləndirib, gələcəkdə xalq mahnıları, rəqslər üçün çoxlu sayda materialların çap olunmasının vacibliyini vurğulayıb.

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rektoru, professor Ceyran Mahmudova da təqdimatın önəmindən bəhs edərək Milli Kitabxananın musiqi irsimizə töhfəsini yüksək qiymətləndirib. O, Azərbaycan bəstəkarlarının əsərlərinin nəşrinə, həmçinin atası Emin Sabitoğlunun da əsərlərinin nəfis tərtibatlı çapına görə kitabxananın rəhbərliyinə təşəkkür edib.

Bakı Şəhər Mədəniyyət Baş İdarəsinin rəisi İbrahim Əliyev idarənin tabeliyində fəaliyyət göstərən musiqi məktəblərində tədrisdə bu vəsaitlərə böyük ehtiyacın olduğunu söyləyib.

Azərbaycan Bəstəkarlar İttifaqının katibi, Əməkdar incəsənət xadimi, professor Zemfira Qafarova, Üzeyir Hacıbəyli adına Bakı Musiqi Akademiyasının elmi işlər üzrə prorektoru, professor Gülnaz Abdullazadə, Azərbaycan Milli Konservatoriyası nəzdində Musiqi Kollecinin direktoru, professor Nazim Kazımov musiqi ilə bağlı nəşrlərin ərsəyə gəlməsinə görə Milli Kitabxanaya təşəkkür edib, belə nəşrlərin elektron variantının kitabxananın saytı vasitəsilə dünyaya yayılmasının önəmini vurğulayıblar.

Azərbaycan Milli Konservatoriyasının elmi işlər üzrə prorektoru, professor Lalə Hüseynova bütün təbriklərə qoşularaq, uzun illər pis vəziyyətdə olan not nəşrlərinin çapı məsələsinin artıq sistemli xarakter aldığını, konservatoriyanın bütün nəşrlərinin Milli Kitabxanaya təqdim edildiyini və vokal kafedrası üçün də vəsaitlərin çapına ehtiyac olduğunu qeyd edib.

Üzeyir Hacıbəylinin Ev-Muzeyinin direktoru, not məcmuələrinin redaktoru, Xalq artisti Sərdar Fərəcov çıxış edərək layihədə əməyi keçənlərə təşəkkür edib, gələcəkdə Xalq Çalğı Alətləri Orkestri üçün də vəsaitlərin hazırlanacağını söyləyib.

Tədbirin sonunda Azərbaycan Milli Kitabxanası ilə Ü.Hacıbəyli adına Bakı Musiqi Akademiyası arasında əməkdaşlıq haqqında memorandum imzalanıb. Sənəddə qarşılıqlı maraq doğuran beynəlxalq layihələrdə və proqramlarda birgə iştirak, ölkə üzrə birgə layihələrin, birgə elmi tədbirlərin hazırlanması və həyata keçirilməsi, görkəmli bəstəkarların, musiqi xadimlərinin yubileylərinin qeyd olunması, akademiyanın nəşrlərinin mütəmadi olaraq Milli Kitabxanaya təqdim olunması, bəstəkarların və musiqi xadimlərinin yeni əsərlərinin təqdimatı, kitab sərgilərinin təşkili və s. nəzərdə tutulub.

Sonda qonaqlar "Milli musiqi xəzinəmizdən" layihəsi çərçivəsində nəşr olunan not məcmuələri ilə tanış olublar.

# "Publisistik taktlar"

## Mətbuat Şurasında mərhum jurnalist Tahir Abbaslının kitabının təqdimatı keçirilib



Sentyabrın 21-də Azərbaycan Mətbuat Şurasında ustad jurnalist, yazıçı-publisist Tahir Abbaslının (1948-2021) "Publisistik taktlar" kitabının təqdimatı keçirildi. Nəşr Tahir Abbaslının vəfatından sonra işıq üzü görüb.

Tədbirdə çıxış edən Mətbuat Şurasının sədri Əflatun Amaşov Tahir Abbaslını peşəkar, kəsərli qələmi, özünəməxsus üslubu olan və ən əsası, peşəsinə hər zaman vicdanla yanaşan, mətbu sözün dəyərini uca tutan jurnalistlərdən biri kimi tanıdığını dedi. Qeyd etdi ki, mərhum jurnalist bu yüksək peşə keyfiyyətlərini uzun illər çalışdığı mətbuat orqanlarında, eləcə də Azərbaycan Radiosu və Televiziyasında fəaliyyəti dövründə sübut edib. Tahir Abbaslının jurnalist ömrünün son illəri "Mədəniyyət" qəzeti ilə bağlı olub. Təqdim olunan kitabda onun "Mədəniyyət" qəzetində çap edilmiş publisistik yazılarından seçmələr toplanıb. Əflatun Amaşov nəşri ərsəyə gətirən "Mədəniyyət" qəzetinin kollektivinə təşəkkür etdi.





"Mədəniyyət" qəzetinin baş redaktoru Vüqar Əliyev tədbimat mərasiminin təşkilinə görə Mətbuat Şurasına minnətdarlığını bildirdi. Qeyd etdi ki, Tahir Abbaslı yazılarına qarşı hədsiz həssas bir müəllif idi. Onun incəsənət, ədəbiyyat, tarixi-mədəni irslə bağlı yazıları bədii publisistikanın dəyərli nümunələridir. Nəşrdə müəllifin "Mədəniyyət" qəzetində 2011-2021-ci illərdə dərc olunmuş Azərbaycan söz-sənət irsi ünvanlı, böyük sevgi və yüksək publisistik dillə qələmə alınmış yazılarından 55 nümunə yer alıb. Kitabda yazılar "Musiqidə obrazlaşanlar", "Söz ömrü qazananlar", "Səhnə və ekran fədakarları", "Rənglərin dünyasından" və "Tarixi yaddaş" adı ilə beş bölmədə təqdim edilir.

Mətbuat Şurası Ahıl Jurnalistlər Məclisinin rəhbəri, Əməkdar jurnalist Tahir Aydınoğlu uzun illər dost və həmkar olduğu Tahir Abbaslı haqqında fikirlərini bölüşdü. Bildirdi ki, onu həyat özü jurnalistikaya hazırlamışdı: "Tahir ilk vaxtlarda tanıdan Azərbaycan Radiosundakı fəaliyyəti olub. Onu sonra televiziyaya dəvət etdilər. O, ömrü boyu sadə həyat yaşadı. Tahirin əziz xatirəsi həmkarlarının, onun qələminin dəyərini bilən oxucuların qəlbində yaşayacaq".

Tədbirdə daha sonra mərhum jurnalisti yaxından tanıyan insanlar – AMEA Folklor İnstitutunun şöbə müdiri Əli Şamil, "Şuşa" qəzetinin redaktoru, tədqiqatçı Vasif Quliyev, diaspor fəalı Qənimət Səfərov, "Azərbaycan Jurnalistlərinin Həmrəyliyi Komitəsi" İctimai Birliyinin sədri Mədət Məmmədov, şair-tərcüməçi Akif Əhmədgil, "Xalq qəzeti"nin əməkdaşı Namiq Əhmədov, "Mədəniyyət" qəzetinin baş redaktor müavini Fariz Yunisli, qəzetin əməkdaşları Həmidə Rüstəmova, Lalə Azəri və başqaları çıxış edərək Tahir Abbaslının yüksək peşəkarlıq və insani keyfiyyətlərindən söz açdılar, xatirələrini bölüşdülər.

Bildirildi ki, Tahir Abbaslı bütün həyatı boyu sözlə nəfəs alıb. O, fəaliyyəti dövründə həmişə haqq-ədalətin carçısı olub, milli düşüncənin yorulmaz təbliğatçısı kimi tanınıb. Qeyd edildi ki, Tahir Abbaslının hər bir yazısı publisistika dərsidir.

Sonda Tahir Abbaslının qohumu İlham Axundov, oğlu Üzeyir Abbasov çıxış edərək ailələri adından Mətbuat Şurasına, "Mədəniyyət" qəzetinə və tədbir iştirakçılarına təşəkkürlərini bildirdilər.

Qeyd edək ki, "Mədəniyyət" qəzetinin layihəsi olaraq "Mütərcim" nəşriyyatında işıq üzü görən kitabın tərtibçisi Fariz Yunisli, redaktoru Vüqar Əliyev, dizayneri Cavid Sərxanbəyli, korrektoru Səbinə Əlibalaqızıdır.

Xatırladaq ki, Tahir Heydər oğlu Abbaslı 1948-ci il sentyabrın 25-də Ağdam rayonunun Novruzlu kəndində anadan olub. 1958-ci ildə ailəsi Füzuli rayonunun Əhmədalılar kəndinə köçüb və o, 1965-ci ildə həmin kənddə orta məktəbi bitirib. Azərbaycan Dövlət Universitetinin (indiki BDU) Jurnalistika fakültəsinə daxil olub. Tələbə ikən, 1971–1972-ci illərdə "Bakı" və "Baku" axşam qəzetlərində korrektor işləyib. 1974-cü ildə təhsilini başa vurduqdan sonra ordu sıralarında xidmət edib.

Tahir Abbaslı 1977–1994-cü illərdə Azərbaycan Teleradio Verilişləri Komitəsində redaktor, böyük redaktor, şöbə müdiri və studiya direktoru vəzifələrində çalışıb, "Səhər" proqramının yaradıcılarından olub. 1994–2004-cü illərdə müxtəlif qəzetlərdə müxbir, şöbə müdiri və baş redaktor kimi fəaliyyət göstərib.

İstedadlı publisist 2004-cü ildən taleyini "Mədəniyyət" qəzeti redaksiyası ilə bağlayıb. Müxbir, şöbə müdiri, redaktor vəzifələrində çalışıb. 2016-cı ildə yaşla əlaqədar təqaüdə çıxsa da, redaksiya ilə əlaqəsini kəsməyib, diqqətçəkən yazıları qəzetdə mütəmadi dərc olunub. Maraqlı hekayə və esselərin də müəllifi olan Tahir Abbaslı 2021-ci il iyulun 18-də vəfat edib.

# "Qarabağın tarixi" mövzusunda qısa videoçarxlar müsabiqəsi

Mədəniyyət Nazirliyi "Qarabağın tarixi" mövzusunda qısa videoçarxlar müsabiqəsi davam edir.

Müsabiqənin məqsədi Qarabağın qədim tarixi və zəngin mədəniyyətini təbliğ etmək, yaradıcı gənclərə dəstək olaraq onların fəaliyyətini stimullaşdırmaq, yeni yaradıcı qüvvələri prosesə cəlb etməkdir.




Müsabiqədə Azərbaycan vətəndaşları və ölkəmizdə daimi yaşayış icazəsi olan bütün şəxslər iştirak edə bilər.

Hər iştirakçı yalnız bir videoçarxla müsabiqəyə qoşula bilər. İştirakçının yaş məhdudiyyəti yoxdur. Videoçarxlar MP4 və ya MOV formatında qəbul edilir (1920X1080 ölçüdə). Videoçarxların müddəti maksimum 3 dəqiqə həcmində olmalıdır. Videoçarxlarda istifadə edilən materialların müəllif hüquqları məsələləri ilə bağlı videomaterialın müəllifi məsuliyyət daşıyır.

Sənədlər oktyabrın 20-dək elektron şəkildə mövzunun adı qeyd edilməklə ("Qarabağın tarixi") media@culture.gov.az poçt ünvanına göndərilməlidir.

Qalibləri C.Cabbarlı adına "Azərbaycanfilm" Kinostudiyasının nəzdində yaradılmış Ekspert Şurası müəyyən edəcək.

Qalib müəlliflər müvafiq olaraq 1000, 800 və 500 manat məbləğində pul mükafatı və diploma mükafatlandırılacaq.

Müsabiqənin qaliblərinin adları noyabrın 7-dək Mədəniyyət Nazirliyinin və "Azərbaycanfilm" Kinostudiyasının saytlarında (www.culture.gov.az www.azerbaijanfilm.az) və "Mədəniyyət" qəzetində elan olunacaq.

## Xatirə təqvimi — 24-27 sentyabr

### Azərbaycan

**24 sentyabr 1977** – Tanınmış şair, Dövlət mükafatı laureatı Əhməd Cəmil (Əhməd Səttar oğlu Cəmilzadə; 20.10.1913 – 1977) vəfat edib. Ədəbi nəşrlərdə müxtəlif vəzifələrdə çalışıb. Rus dilindən ədəbi tərcümələr edib.

**25 sentyabr 1890** – Folklorşünas alim, Əməkdar mədəniyyət işçisi Əbülqasım Nurməmməd oğlu Hüseynzadə (1890 – 2.9.1988) anadan olub.

**25 sentyabr 1896** – Xalq rəssamı, Dövlət mükafatı laureatı Sergey Mitrofanoviç Yefimenko (1896-1971) anadan olub. 1927-ci ildən Dövlət Rus Dram Teatrında rəssam və baş rəssam işləyib, Opera və Balet Teatrında çalışıb.

**25 sentyabr 1906** – Azərbaycanın və Türkmənistanın Əməkdar artisti, opera müğənnisi Xanlar Məmməd oğlu Haqverdiyev (1906 – 5.12.1980) Ağdam rayonunun Seyidli kəndində doğulub. Akademik Opera və Balet Teatrında çalışıb. 1930-cu illərdə Türkmənistanda Opera və Dram Teatrının yaradılmasında böyük xidmətləri olub.

**25 sentyabr 1906** – Xalq artisti Solmaz (Nina) Orlinskaya (1906-1973) anadan olub. Tiflis Azərbaycan teatrında çalışıb, 1933-cü ildən Gəncə Dram Teatrının aktrisası olub.

**25 sentyabr 1910** – Xalq artisti Sergey İliç Yakuşev (1910-1995) Həştərxanda doğulub. 1948-ci ildən Dövlət Rus Dram Teatrının aktyoru olub.

**25 sentyabr 1913** – Xalq rəssamı, Dövlət mükafatları laureatı Nüsrət Möhsün oğlu Fətullayev (1913 – 1.10.1987) Lənkəran rayonunda doğulub. 1935-ci ildən Akademik Milli Dram Teatrında çalışıb, teatrın baş rəssamı olub.

**25 sentyabr 1913** – Yazıçı Şəmistan Yusif oğlu Əsgərov (1913-1985) anadan olub. Kitabları: "Müstəntiq Cəbrayılov", "İtmiş güllə", "Üç düşmən" və s.

**25 sentyabr 1928** – Kinorejissor, Əməkdar incəsənət xadimi, Dövlət mükafatı laureatı Arif Hacağa oğlu Babayev (1928 – 26.8.1983) Bakıda doğulub. Filmləri: "Uşaqlığın son gecəsi", "Gün keçdi", "Arxadan vurulan zərbə", "Alma almaya bənzər", "Birisigün, gecəyarısı..." və s.

**25 sentyabr 1929** – Kitabxanaşünas alim Tacəddin Fərhad oğlu Quliyev (1929-2005) Goranboy rayonunun Zeyvə kəndində anadan olub. Respublika Kitabxana Kollektorunun direktoru, BDU-nun kafedra müdiri işləyib.

**25 sentyabr 1935** – Tanınmış ədəbiyyatşünas, filosof Asif Qasım oğlu Əfəndiyev (Asif Ata; 1935 – 6.6.1997) anadan olub. "Dairələr", "İnsan yolu", "Tarixə çatmaq" və d. fəlsəfi-bədii əsərlərin müəllifidir.

**25 sentyabr 1984** – Əməkdar incəsənət xadimi, kinorejissor Zeynəb Talıb qızı Kazımova (27.12.1912 – 1984) vəfat edib.

**26 sentyabr 1936** – Əməkdar artist, tanınmış rəqqas Kamil Hənifə oğlu Dadaşov (1936 – 15.10.2016) Bakının Novxanı kəndində anadan olub.

**26 sentyabr 1951** – Xalq artisti Ramiz Soltan oğlu Məmmədov (1951 – 21.3.2021) anadan olub. Akademik Musiqili Teatrda çalışıb. Televiziya tamaşalarında, filmlərdə ("Alma almaya bənzər", "Yalan") çəkilib.

**26 sentyabr 1961** – Görkəmli müğənni, Azərbaycan peşəkar vokal məktəbinin banisi, SSRİ Xalq artisti Bülbül (Murtuza Məşədi Rza oğlu Məmmədov; 22.6.1897 – 1961) vəfat edib. Azərbaycan Dövlət Konservatoriyasının professoru olub, xalq musiqisini öyrənən elmi-tədqiqat kabinetini yaradıb.

**26 sentyabr 1967** – Əməkdar artist Nağəddin Ağarza oğlu Məmmədov (1967 – 22.5.2019) Göygöl rayonunda doğulub. Gəncə Dövlət Kukla Teatrının aktyoru olub.

**26 sentyabr 2002** – Əməkdar artist, vokalçı (soprano) Mariya Sergeyevna Titarenko (27.3.1917 – 2002) vəfat edib. Akademik Opera və Balet Teatrının solisti olub.

**26 sentyabr 2008** – Əməkdar incəsənət xadimi, kinooperator Şərif İsmayıl oğlu Şərifov (13.10.1938 – 2008) vəfat edib. Filmləri: "Yol əhvalatı", "Əzablı yollar", "Qərib cinlər diyarında" və s.

**26 sentyabr 2011** – II Bakı Beynəlxalq Kitab Sərgi-Yarmarkasının açılışı keçirilib. Sərgi-yarmarka 30 sentyabradək davam edib.

**26 sentyabr 2019** – Tanınmış müğənni Cəfər Ağaeli oğlu Behbudov (17.8.1951 – 2019) vəfat edib.

**26 sentyabr 2021** – Əməkdar incəsənət xadimi, bəstəkar Adil Musa oğlu Babirov (15.2.1934 – 2021) vəfat edib. Ömrünün son illərini Kanadada yaşayıb.

**27 sentyabr 1930** – Əməkdar mədəniyyət işçisi Nina Qriqoryevna Fişeva (1930 – 29.8.2010) Bakıda anadan olub. Ömrünü arxiv işinə həsr edib, 1959-2009-cu illərdə Azərbaycan Respublikası Dövlət Foto-Kino Sənədlər Arxivinin direktoru işləyib.

**27 sentyabr 1931** – Əməkdar incəsənət xadimi, musiqişünas, professor Bilqeyis Mir Əbdül Qəni qızı Qarayeva-Məmmədova (1931 – 3.7.2010) anadan olub. Azərbaycan Dövlət Konservatoriyasında (indiki Bakı Musiqi Akademiyası) prorektor işləyib.

**27 sentyabr 2012** – Əməkdar mədəniyyət işçisi, rejissor Rafiq Atakişiyev (20.5.1940 – 2012) vəfat edib. Musiqili Komediya, Ağdam, Gəncə teatrlarında çalışıb.

**27 sentyabr 2021** – Xalq artisti, tanınmış müğənni Teymur İbrahim oğlu Mirzəyev (1936–2021) vəfat edib. "Qaya" vokal kvartetinin bədii rəhbəri olub.

### Dünya

**24 sentyabr 1896** – Amerika yazıçısı Frensis Skott Fitsceralд (Francis Scott Key Fitzgerald; 1896 – 21.12.1940) anadan olub. Əsərləri: "Cənnətin bu tərəfində", "Gözəl və lənətlənmişlər", "Böyük Qetsbi" və s.

**24 sentyabr 1934** – İngilis fantast-yazıçısı Con Branner (John Kilian Houston Brunner; 1934-1995) anadan olub.

**25 sentyabr 1765** – Polşa bəstəkarı Mixail Oginski (Michal Kleofas Oginski; 1765–1833) anadan olub.

**25 sentyabr 1897** – Amerika yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı laureatı (1949) Vilyam Folkner (William Cuthbert Faulkner; 1897–1962) anadan olub. "Avqustda işıq", "Şəhər", "İmarət" və s. romanların müəllifidir.

**25 sentyabr 1906** – Rus bəstəkarı, dirijor, pedaqoq Dmitri Dmitriyeviç Şostakoviç (1906 – 9.8.1975) anadan olub. "Burun", "Mtsen qəzasının ledi Makbeti" operaları, "Qızıl əsr", "İşıqlı bulaq" baletləri, 15 simfoniya və s. əsərlərin müəllifidir. Moskva Dövlət Konservatoriyasında Qara Qarayevin müəllimi olub.

**26 sentyabr 1888** – Amerika-ingilis şairi və yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1948) laureatı Tomas Eliot (Thomas Stearns Eliot; 1888–1965) anadan olub. XX əsr modern poeziyasının parlaq nümayəndələrindən biridir.

**26 sentyabr 1889** – Alman filosofu, ekzistensializmin tanınmış nümayəndəsi Martin Haydeger (Martin Heidegger; 1889 – 26.5.1976) anadan olub.

**27 sentyabr 1871** – İtalyan yazıçısı, ədəbiyyat üzrə Nobel mükafatı (1926) laureatı Qrasiya Deledda (1871–1936) anadan olub.

**Hazırladı: Vüqar Orxan**

# "TÜRKSOY Opera Günləri"ndə Fikrət Əmirovun musiqiləri səslənib

## Bursa, İzmir və Şimali Kiprdə konsertlər keçirilib



əvvəli səh. 1-də

Fikrət Əmirovun əzəmətli musiqi əsəri – "Azərbaycan kapriççiosu" ilə başlayan bütün konsertlər dinləyicilərin böyük marağına səbəb olub.

Konsertlərdə türkdilli dövlətlərin tanınmış opera müğənniləri Uralxan Seilbekova və Şınqıs Rasılxan (Qazaxıstan/Astana Opera Teatrı), Elgiz Beyşenbayev və Ataxan Aybek Ulu (Qırğızıstan/ Bişkek Opera Teatrı), Burcu Sayın (Türkiyə/ İzmir Opera Teatrı), Malika Normatova (Özbəkistan/Daşkənd Opera Teatrı), Eleonora Jorjoska (Şimali Makedoniya) və Həvva Özdəmiraq (Şimali Kipr) çıxış ediblər.

Ölkəmizi festivalda təmsil edən Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti, soprano Fatimə Cəfərzadənin ifasında Fikrət Əmirov və Cüzeppe Verdinin ariyaları tamaşaçılar tərəfindən alqışlarla qarşılanıb.

Digər opera sənətkarlarının ifasında Türk dünyasının görkəmli bəstəkarları A.Maldıbayev, A.Jubanov, L.Hamidi, M.Aşrafi, L.Pipkov, A.Atabayev, K.Azizin əsərləri də gecənin unudulmaz anlarından olub. Konsertin ikinci bölümündə Qərb dünyasının məşhur klassik opera nümunələri – C.Verdi, C.Puççini, F.Çilea, C.Rossini, P.Maskanyi və Ş.Qunonun əsərlərindən parçalar təqdim edilib.

Bursada keçirilən ilk konsertdən öncə çıxış edən TÜRKSOY-un Baş katibinin müavini Bilal Çakıcı, Bursa Böyükşəhər Bələdiyyəsi başqanının müavini Süleyman Çelik və digər rəsmilər "Opera Günləri"nin türk dövlətləri arasında mədəni əlaqələrin inkişafında rolu və TÜRKSOY Daimi Şurasının qərarı ilə 2022-ci ildə keçirilən "Fikrət Əmirovu anma ili" barədə məlumat veriblər.



Qeyd edək ki, Bursa və İzmirdə konsertlərlə bərabər dahi Azərbaycan bəstəkarının həyat və yaradıcılığının müxtəlif dövrlərini əhatə edən fotosərgi də təşkil edilib. Konsertlərin sonunda azərbaycanlı dirijora və türkdilli dövlətlərin solistlərinə TÜRKSOY-un "Fikrət Əmirov-100" xatirə diplomu və mükafatları təqdim olunub.

Sentyabrın 20-də "TÜRKSOY Opera Günləri"nin növbəti konsert proqramı bir neçə illik fasilədən sonra Şimali Kiprdə – Qazimağusa şəhərində, ertəsi gün isə Girne şəhərindəki tarixi Bellapais monastırında keçirilib.

Türk dünyasının sənətçilərinin ifaları alqışlarla qarşılanıb. TÜRKSOY-un Baş katibi Sultan Raev çıxış edərək sənətçilərə təşəkkürünü bildirib, təşkilatın 23 ildir gerçəkləşən layihəsinin əhəmiyyətindən bəhs edib.

**Mehparə Sultanova**
**Ankara**

# Nyu-Yorkda həmyerlimizin təşkilatçılığı ilə bəstəkarlıq müsabiqəsi

## "Şuşa" mükafatına Parisdə yaşayan pianoçu Etibar Əsədli layiq görülüb

Nyu-Yorkda yaşayan həmyerlimiz, pianoçu, professor Nərgiz Əliyarovanın rəhbərlik etdiyi Milli Musiqi və Qlobal Mədəniyyət Cəmiyyəti (NMGCS) tərəfindən beynəlxalq bəstəkarlıq müsabiqəsi keçirilib.



İkinci dəfə gerçəkləşən layihə görkəmli bəstəkar Fikrət Əmirovun 100 illiyinə həsr olunub. Müsabiqəyə 20-dək ölkədən bəstəkarlar qoşulublar.

Əcnəbi münsiflər heyətinin qərarı ilə Fransada yaşayan azərbaycanlı bəstəkar, pianoçu Etibar Əsədlinin əsəri müsabiqənin "Şuşa" mükafatına layiq görülüb.

Lin Sen (Çin) 1-ci yerə, Jared Destro (ABŞ) 2-ci yerə, Roman Czura (Almaniya) və İrakli Areşidze (Gürcüstan) 3-cü yerə, həmçinin hər bir iştirakçı müsabiqənin Mükəmməllik Mükafatına layiq görülüb.

Leilo Di Tullio (İtaliya), Marius Diaz (Kolumbiya), Franz Augustine Mallari (Filippin), Lukas Jaramillo Valderrama (Kolumbiya), Mehran Pedram (İran), Alicia Haydee Clausi (Argentina) "Nailiyyət sertifikatı", Sina Cafarikia (İran) Xüsusi "Hacıbəyli sertifikatı" ilə təltif olunublar.

Qeyd edək ki, musiqi təhsilini Bakıda alan Etibar Əsədli yerli və beynəlxalq caz festivallarında uğurlu çıxışlar edib. Hazırda Paris şəhərində yaşayır. Fransanın CMDL (Centre des Musique Didier Lockwood) caz təhsili məktəbinin məzunudur. Eyni zamanda Avropanın məşhur caz ulduzları ilə müxtəlif layihələrdə iştirak edir.

# Rauf Hacıyevin Əlcəzair mədəniyyətinə töhfələri haqqında

"Əl Hərir" informasiya portalında görkəmli Azərbaycan bəstəkarı Rauf Hacıyevin Əlcəzair mədəniyyətinə töhfəsi" sərlövhəli məqalə yayımlanıb.

Bəstəkarın 100 illik yubileyinə həsr olunmuş yazıda ölkəmizin Əlcəzairdəki müvəqqəti işlər vəkili Rafail Bağırov bəstəkarın həyat və fəaliyyəti barədə geniş məlumat verib. Qeyd olunub ki, Rauf Hacıyev 1971-ci ildə Azərbaycan SSR Mədəniyyət Nazirliyinin göndərişi ilə Əlcəzairdə mədəniyyət qrupuna rəhbərlik edib. Azərbaycan musiqisi tarixində novator bəstəkar kimi qalan Rauf Hacıyev əlcəzairli gənclərin musiqi təhsilində, milli musiqi məktəbinin formalaşmasında yaxından iştirak edib. Həmin musiqiçi kadrlar indi də Əlcəzair Milli Konservatoriyasında və Buduau şəhərində yeni açılmış musiqi məktəbində müəllim kimi çalışırlar.

Diqqətə çatdırılıb ki, Rauf Hacıyev Əlcəzairdə olduğu müddətdə pedaqoji fəaliyyətlə yanaşı, bu ölkənin mədəniyyət tarixini də dərindən öyrənir, yerli musiqi folkloru nümunələrini toplayıb nota köçürür. Bəstəkarın ərsəyə gətirdiyi bir sıra instrumental əsərlər də Əlcəzair lirik havaları əsasında bəstələnib.

Məqalədə qeyd olunub ki, Rauf Hacıyev Əlcəzair Milli Musiqi Teatrı üçün ilk baletin müəllifidir. "Üç inqilab" adlanan bu balet Əlcəzair Mədəniyyət Nazirliyinin sifarişi ilə bəstələnib. Əsərin əsas mövzusu əsarətdən azad olmuş Əlcəzair xalqının yeni həyat quruculuğuna qədəm qoymasıdır. Bu baletin böyük uğur qazanmasından ruhlanan bəstəkar həmin mövzuda "Alov" və "Hürriyyət" adlı əsərlər də bəstələyib.




# Azərbaycanlı rejissorun filmi Buxarada maraqla qarşılanıb



Xəbər verdiyimiz kimi, "İpək Yolunun dürdanəsi" XIV Daşkənd Beynəlxalq Film Festivalı çərçivəsində "Azərbaycan kinosu günləri" təşkil edilib. Daşkənddə Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzində (AMM) açılışı olan tədbir Özbəkistanın qədim Buxara şəhərində davam edib.

Buxara Dövlət Universitetində keçirilən tədbirdə yerli rəsmilər iştirak ediblər. Buxara Vilayəti rəhbərinin müavini Mirəli Xamrayev Azərbaycandan gələn qonaqlara öz təşəkkürünü bildirərək, belə tədbirlərin keçirilməsinin iki ölkə arasında dostluq və mədəni əlaqələrin daha da möhkəmlənməsinə səbəb olduğunu söyləyib.

Rejissor İlqar Nəcəf tədbir iştirakçılarını salamlayaraq, rejissoru olduğu "Suğra və oğulları" filmi haqqında məlumat verib. Bildirib ki, ekran əsərində İkinci Dünya müharibəsi dövründə Azərbaycanda, ucqar kənddə yaşayan insanların taleyindən bəhs olunur. Sonra "Suğra və oğulları" filmi nümayiş etdirilib.

Qeyd edək ki, İlqar Nəcəfin "Suğra və oğulları" bədii filmi, eləcə də kinorejissor Ayaz Salayevin "Torpaq" sənədli filmi XIV Daşkənd Beynəlxalq Film Festivalının proqramında yer almışdı. Festival 13-18 sentyabr tarixində keçirilib.

# Avropa kino mədəniyyətinin məşhur məkanları

Avropa Kino Akademiyasının təşəbbüsü ilə qitənin kino ilə bağlı məşhur məkanlarının siyahısı tərtib edilir. Məqsəd Avropa kinematoqrafı üçün rəmzi məna daşıyan, tarixi dəyərə malik, gələcəkdə də dəstəklənməsinə və qorunub saxlanmasına ehtiyac olan yerləri və məkanları müəyyən etməkdir.



"European Film Awards" mükafatının 35-ci dəfə təqdim edilməsi mərasimi ilə əlaqədar bu il siyahıya daha 22 yerin adı əlavə edilib və beləliklə, rəmzi məkanların ümumi sayı 35-ə çatıb. Siyahıda İspaniya və Portuqaliyanın əlamətdar məkanları da var.

Portuqaliyanın Portu şəhərindəki Ribeyra-du-Portu yaşayış məhəlləsinin və sahil küçəsinin tarixi dəyərinin dəstəklənməsi və qorunub saxlanılması zəruri olduğuna görə Avropa Kino Akademiyası bu məkanı Avropa kino mədəniyyəti incilərindən biri kimi seçib. Manuel di Oliveyranın üç məşhur filmi Ribeyra-du-Portuda çəkilib: "Doru, əməkçilər çayı" (1931), "Aniki Bobo" (1942) və "Mənim uşaqlıq limanım" (2001). Portuqaliyada adı incilər siyahısına daxil edilmiş yeganə məkan Ribeyra-du-Portudur.

İspaniyanın paytaxtı Madriddəki "Sirkulo de Bellas Artes" Mədəniyyət Mərkəzində ölkənin ən qocaman kinoteatrlarından biri yerləşir. Antonio Drouvun "Savoltanın işi haqqında həqiqət" (1980), Pere Portabelyanın "Əsas hesabat" (1977), Conas Truebanın "Ülyahəzrət" (2019) filmləri kimi məşhur ekran əsərləri bu binada çəkilib.

Akademiyanın direktoru Matteys Vouter Knolun sözlərinə görə, siyahıya hər il yeni məkanlar əlavə olunacaq.

## Xronoqraf

# Tarixdə bu gün

*Zamanın səhifələrində qalan olaylar, faktlar...*

### 651 il əvvəl...

**26 sentyabr 1371-ci ildə** Serbiya ərazisindəki Maritsa çayı sahilində serb, xorvat, bolqar və macarların müttəfiq ordusu ilə Osmanlı qoşunları arasında döyüş olub. Sultan İldırım Bəyazidin qoşunları müttəfiqlərin ordusunu darmadağın edib. Bu qələbədən sonra Serbiya və indiki Bolqarıstanın əsas hissəsi, habelə Makedoniya və Qərbi Frakiya Osmanlıların nəzarətinə keçib. Osmanlının Balkan yarımadasında hökmranlığı təxminən 5 əsr sürdü.

### 488 il əvvəl...

**27 sentyabr 1534-cü ildə** Sultan I Süleymanın (Qanuni) başçılıq etdiyi Osmanlı ordusu Şah Təhmasibin başçılıq etdiyi Səfəvi qoşunlarını məğlub edərək Cənubi Azərbaycanın bir hissəsini, o cümlədən Təbrizi ələ keçirib. Lakin yerli əhalinin müqaviməti, eləcə də qışın sərt keçməsi və ərzaq çatışmazlığı Osmanlı qoşunlarını geri dönməyə məcbur edib.

### 467 il əvvəl...



**25 sentyabr 1555-ci ildə** Almaniyada katoliklərlə protestantlar arasında çoxillik müharibəyə son qoyan "Auqsburq sülhü" imzalanıb. İmperator V Karl və protestantlığı qəbul etmiş alman knyazları arasında imzalanan sazişə görə, katoliklər xristianlıqdakı lüteran (protestant) təriqətini rəsmən tanıdılar. Almaniya Avropada protestantlığın mərkəzinə çevrildi.

### 117 il əvvəl...

**24 sentyabr 1905-ci ildə** Norveç İsveç Krallığından ayrılaraq müstəqil dövlət olub. İsveç-Norveç uniyası (ittifaqı) 1751-ci ildə bağlanmışdı. Həmin ittifaqadək Danimarka Krallığının nəzarəti altında olan Norveç İsveçlə uniya bağladıqdan sonra nisbi özünüidarə hüququ qazanmışdı. Maraqlıdır ki, müstəqilliyini elan edəni Norveçin ilk kralı danimarkalı VII Haakon oldu. Danimarka Norveçin ərazisi sayılan Qrenlandiyanı da öz nəzarətində saxladı.

### 109 il əvvəl...

**24 sentyabr 1913-cü ildə** İrlandiya Böyük Britaniya Krallığı tərkibində muxtariyyət statusu alıb. Bununla bağlı xüsusi sənəd – "Qomrul haqqında qanun" qəbul edilib. 1949-cu ildə Cənubi İrlandiya müstəqil dövlət oldu, Şimali İrlandiya isə nisbi özünüidarə hüququ ilə Britaniyanın tərkibində qaldı.

### 104 il əvvəl...



**26 sentyabr 1918-ci ildə** Azərbaycanın bütün ərazisində Cümhuriyyət hakimiyyətini bərqərar etmək üçün hərbi əməliyyatları davam etdirən Nura paşanın komandanlığı altındakı Qafqaz İslam Ordusu Qarabağda erməni-daşnak qüvvələrinə güclü zərbə vuraraq Şuşa şəhərinə daxil olub. Əhali xilaskar ordunu təntənə ilə qarşılayıb.

### 90 il əvvəl...

**23 sentyabr 1932-ci ildə** Səudiyyə Ərəbistanı Krallığı yaranıb. Ərəbistan yarımadasında geniş sahəni (2,15 milyon kv km) əhatə edən Səudiyyə tayfalarının birləşmə prosesi XIX əsrin əvvəlində başlanmışdı. 1927-ci ildə İbn Səud Hicaz, Hecd və s. bölgələri birləşdirdi, beş il sonra Səudiyyə Ərəbistanı krallıq elan edildi.

### 49 il əvvəl...

**24 sentyabr 1973-cü ildə** Portuqaliyanın Qərbi Afrikadakı müstəmləkəsi olan Qvineya-Bisau müstəqilliyini elan edib. Qvineya-Bisau Afrikada müstəmləkədən qurtulan sonuncu ölkələrdən idi.

### 33 il əvvəl...

**23 sentyabr 1989-cu ildə** Azərbaycan SSR Ali Soveti "Azərbaycan SSR-in dövlət suverenliyi haqqında" Konstitusiya qanununu qəbul edib. Sənəddə belə bir müddəa əksini tapmışdı ki, ittifaq (SSRİ) səviyyəsində qəbul olunmuş qanunvericilik aktı Azərbaycanın suverenliyinə xələl gətirərsə, onun respublika ərazisində qüvvəsi dayandırılacaq.

### 29 il əvvəl...

**24 sentyabr 1993-cü ildə** Azərbaycan Respublikası Müstəqil Dövlətlər Birliyinə (MDB) daxil olub. Moskvada MDB dövlət başçılarının sammitində iştirak edən prezident səlahiyyətlərinin icraçısı Heydər Əliyev, Milli Məclisin ona verdiyi səlahiyyətə əsasən, ölkəmizin quruma üzvlüyü barədə sənədləri imzalayıb.

### 28 il əvvəl...

**24 sentyabr 1994-cü ildə** Prezident Heydər Əliyev televiziya ilə xalqa müraciət edib. Prezident 20 sentyabrda imzalanan "Əsrin müqaviləsi"nə qarşı çıxan daxili və xarici qüvvələr tərəfindən ölkədə vəziyyəti gərginləşdirmək cəhdləri edildiyini, lakin bunun qarşısının qətiyyətlə alınacağını vurğulayıb. Müraciətdən bir gün öncə (23 sentyabr) dövləti cinayətlərə görə həbs olunmuş bir qrup şəxs MTN-in təcridxanasından qaçırılmışdı.

**Hazırladı: V.Orxan**

Azərbaycan Respublikası Mədəniyyət Nazirliyinin nəşri
MƏDƏNİYYƏT
Qəzet 1991-ci ilin yanvarından çıxır

**Baş redaktor:** Vüqar Əliyev

**Ünvan:** AZ 1012, Bakı şəhəri, Moskva prospekti 1D
Dövlət Film Fondu, 5-ci mərtəbə

**Telefon:** (012) 431-28-79 (baş redaktorun müavini)
431-57-72 (redaktor)
430-16-79; 530-34-38 (müxbirlər)
511-76-04 (mühasibatlıq, yayım)
**E-mail:** qazet@medeniyyet.az
**Lisenziya №** AB 022279. **İndeks:** 0187. **Qiyməti:** 60 qəpik

"Mədəniyyət" qəzetinin kompüter mərkəzində səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.
**Tiraj:** 5072. **Sifariş:** 2719
**Buraxılışa məsul:** Fariz Yunisli

Yazılardakı faktlara görə müəlliflər cavabdehdir.
Qəzetdə AZƏRTAC-ın materiallarından da istifadə edilir.

**Bank rekvizitləri:**
Kapitalbank 1 saylı Yasamal filialı
**Kod:** 200037. **VÖEN:** 9900003611. **SWIFT:** AIIBAZ2XXXX
**Müxbir hesab:** AZ37NABZ01350100000000001944

MADANIYYAT QAZETI REDAKSIYASI
**H/Hesab:** AZ98AIIB33080019443300232103. **VÖEN:** 1300338641